# İBRAHİMİ DİNLƏRDƏ ALLAH

Bu məqalədə İbrahimi dinlərdə; yəni yəhudilik, məsihilik və islamda Allah-taalanın həqiqəti haqda olan fikirlər sizlər üçün açıqlanacaq və sonda müqayisə olacaq:

## A. YƏHUDİLİKDƏ ALLAH

Yəhudiliyin müqəddəs kitabı olan Əhdi-ətiqin və Təlmudun, həmçinin bu kitabları təfsir edən alimlərin Allah barəsində söylədikləri, demək olar ki, olduqca ziddiyyətli və bir-birinə uyğun olmayan sözlərdir. Yəhudilərin müqəddəs kitabları Allah-təalanı tam şəkildə cismi və insani xüsusiyyətlərə malik, maddi varlıq kimi, bəzən insandan daha aşağı şəkildə vəsf edir. Lakin bununla bərabər, həmin kitablarda Allah-təala ali və kamil xüsusiyyətlərlə də vəsf edilmişdir. Çox saylı müasir yəhudi alimləri məhz qeyd etdiyimiz sonuncu xüsusiyyətlərlə Allahı vəsf edirlər.

İlk olaraq bunu söyləmək lazımdır ki, yəhudi dini Allaha və tövhid əqidəsinə inam bəsləyən dinlərdən biridir. Yəhudi alimlərinin bütün əsərlərində Allah-təalanın varlığı aydın, şübhəsiz və sübuta ehtiyacı olmayan bir həqiqətdir. Buna görə də, onların əsərlərində Allahın varlığının sübutuna aid dəlillər gözə çarpmır.[1] Yəhudilikdə Allahın adı "Yəhvə" o qədər müqəddəs sayılır ki, bu adı dilə gətirməkdə çətinlik çəkirlər və ona hörmətsizlik edəcəklərindən ehtiyat edirlər. Bu adın hörməti olduqca çoxdur və onu Tövrat tilavət edərkən belə dilə gətirmək haram bilinir. Yalnız xüsusi dualar zamanı məxsus din xadimləri Yəhvənin adını dilə gətirir. Onun əvəzində "Yaradan", "O", "Mənim ağam" və sair kimi kəlmələrdən istifadə edilir.

Təlmudun yazdığına əsasən, Musa Fironla mübahisə etdiyi zaman, Firan ona deyir: Sənin Allahın kimdir?

---

1. Allah, dünya, insan və Məsih Təlmudun təlimləri əsasında", Dr. Rabb, Abaraam Kohen, birinci çap, əl-Məi nəşriyyatı, 1382 h. ş.

Mən onun səsini eşitmək varlığını duymaq istəyirəm. Musa cavabında deyir: Dünya bizim Allahımızın iqtidarı ilə doludur. O kainatın yaranmasından öncə də var idi. Dünya sona çatdıqdan sonra da var olacaq. O səni yaradıb və bədəninə ruh ilə həyat verib. O səmaları yaradıb, yer üzünü (xalça kimi) döşəyib.[2]

Yəhudi dininə əsasən, dünya və təbiət özü Allahın var olmasını hayqırır. İnsan öz düşüncəsi, fərasəti və ağlı ilə Allahın var olmasını dərk etməyə qadirdir. Təlmuda görə, İbrahim (ə), Əyyub (ə), Hezegel və Məsih ağıl və düşüncələrinin gücü ilə Allahın var olmasına yəqin tapıblar.[3]

Gəlin birlikdə bu qarışıq və ziddiyyətli bəyanlara qısa bir nəzər salaq:

## 1- Allahın birliyi

Yəhudi dinində tövhid əqidəsinin böyük əhəmiyyəti vardır. Yəhudilik daim bütpərəstliklə mübarizə aparmışdır. Əhdi-ətiqdə deyilir: "Rəbb, İsrailin Padşahı, Ordular Rəbbi belə deyir: "Mən birinciyəm, Mən sonuncuyam, Məndən başqa Allah yoxdur."[4] Yaxud oxuyuruq: "Məndən başqa Allah varmı? Başqa Qaya yoxdur."[5]

Təlmudda yazılır: "Allah Adəmi yaratdığı zaman bir surətdə xəlq etdi ki, kafirlər səmalarda başqa tanrıların olmasını iddia etməsinlər."[6]

Ümumiyyətlə, bir Allaha olan inam, yəhudi dininin mühüm etiqadlarından sayılırdı. Belə ki, təkallahlılıq, bu dini zamanındakı başqa inanclardan fərqləndirən əsas xüsusiyyət idi. Necə ki, deyilir: "Hər kəs bütpərəstliyi inkar etsə, yəhudi adlanırdı."[7]

Tövratda deyilir: "İndi görün ki, Allah yalnız Mənəm. Başqası yoxdur. Mənəm öldürən və həyat verən, Mənəm yaralayan və şəfa verən, Heç kim əlimdən qurtara bilməz."[8]

Yaxud yenə Tövratda oxuyuruq: "Allahın Rəbb Mənəm. Məndən başqa allahların olmasın."[9]

## 2- Allahın ruzi verən olması

Təlmuda görə Allah "Rəzzaq" (Ruzi verən) və Rəbb (İdarə edən) dir. Bütün varlıq dünyası Onun meyl və iradəsinə, ruzi bəxş etməyinə möhtacdır. "Allah daim dünyada var olan bütün varlıqlar üçün, ehtiyacları qədər ruzi bəxş edir. İman əhlinə və bütpərəstlərə də ruzisini əsirgəmir."[10]

## 3- Allahın cisim olmaması və bənzərsizliyi

Təlmudun müasir təfsirçiləri yəhudi dinində Allahın cisim olmamasına inandıqlarına israr edirlər. Onlar Allahın Əhdi-ətiqdə və Təlmudda çisimi xüsusiyyətlər ilə təsvir edilməsinə belə aydınlıq gətirirlər ki, Allah insanların öz dili ilə, başa düşdükləri tərzdə onlarla danışır. "Biz Allahın maddi varlığa olşadıldığını, insanların ilahi kəlamı və Allahı daha yaxşı dərk etmələri üçün olduğunu düşünürük."[11]

Təlmuda görə, ruh bədəni əhatə edərək, onu gördüyü kimi, Allah da cahanı əhatə edir və hər şeydən xəbərdardır. Amma onu gözlər görə bilmir. Ruhun harada olduğunu dərk edə

2. Şəmut Rəbba, 5:14.
3. Bemidbar Rəbba, 14:2.
4. Yeşaya, 44:7
5. Yeşaya, 44:8
6. Sanhedrin, 18 A.
7. Megila, 13 A.
8. Qanunun təkrarı, 32:8
9. Qanunun təkrarı, 5:6-7
10. Məxilya, Tövratın Çıxış bölümünün 18-ci ayəsinin təfsirində.
11. Bəraxut, 31 B; Məxilya, Tövratın Çıxış bölümünün 18-ci ayəsinin təfsirində, 65 A.

bilmədiymiz kimi, Allahın da harada olmasını dərk edə bilmərik. Bir halda ki, O, dünyanı əhatə edib.[12]

Tövratda olduqca maraqlı bir şəkildə Allahın dili ilə onun bənzərsiz və misilsiz olmasl qeyd edilir: "Mənə bənzəyən varmı? Xəbər versin."[13]

Yenə həmin Tövratda Allahın göylərə və buludlara hökm etməsi təbiri ilə Onun qüdrətinə işarə edilərək, bənzərsizliyinə təkid edilir: "Ey Yeşurun, bax sənə kömək etmək üçün göylər və buludlara əzəməti ilə minən Allahın bənzəri yoxdur."[14]

Əhdi-ətiqə görə, Rəbbə oxşar ikinci müqəddəs yoxdur. Orada deyilir: "Ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur!"[15] Yaxud yazılır: "Məni kimə bənzədəcəksiniz, kimə oxşadacaqsınız, kiminlə müqayisə edəcəksiniz ki, biz oxşar olaq?"[16]

### 4- Allahın gözlə görülməməsi

Təlmud və Tövrata əsasən Allah gözlə görülməz. Çıxış bölümündə yazılır: "Sonra O davam etdi: Üzümü isə görə bilməzsən"[17]

Təlmudda yəhudi aliminin imperatorla maraqlı mübahisəsi mövcuddur. Roma İmperatoru Hadriat, Rabbi Yahuşu bin Həninaya dedi: Sizin Allahınızı görmək istəyirəm. Rabbi Yahuşu bin Həninaya ona belə cavab verir: Bu qızmar günəşə bax.

İmperator deyir: Baxa bilmirəm.

Rabbi Yahuşu bin Həninaya deyir: Allahın yaratdığına baxmaq, müşahidə etmək bacarığın yoxdursa, necə ola bilər ki, Yaradanı görəsən?[18]

### 5- Allahın məkansızlığı

Yəhudi alimləri müqəddəs kitablardakı bəzi cümlələri misal gətirərək, Allahın zaman və məkanın fövqündə dayandığını söyləyirlər: ""Hamınız Rəbbin isminə həmd edin! Çünki yalnız Onun ismi ucadır. Əzəməti göylərin, yerin üstündədir."[19] "Kimsə gizli yerlərdə saxlana bilər ki, Mən onu görə bilməyim? Rəbb belə bəyan edir: Yeri, göyü Mən doldurmamışammı?"[20] Bir padşah yatdığı yerdə olarkən, sarayının başqa hissəsində var ola bilməz. Yaxud əksinə. Amma Allah-təalanın pak zatı həm yuxarıları, həm də aşağıları əhatə edib."[21]

Ümumiyyətlə, çox vaxt yəhudi alimləri Allahı "Məkan" adlandırır. Bunun səbəbi isə Allahın məkanı əhatə etməsi, onun fövqündə dayanması, amma dünyanın Onun məkanı olmamasıdır. "Allahın pak zatı dünyanın məkanıdır. Lakin dünya Allahın məkanı deyil."[22]

Bunun yəhudilərin baxışında əxlaqi görüşü ondan ibarətdir ki, insanlar Allahın daim onlara nəzarət etdiyini bilməlidirlər.

### 6- Allahın mütləq qüdrəti

Yəhudi alimlərinin fikrincə, Allah-təala mütləq qüdrət sahibidir. Heç bir şey onun qüdrəti xaricində deyil.

---

12. Bəraxut, 10 A.
13. Yeşaya, 44:7
14. Qanunun tekrari 33:26
15. Şamuel, 2: 2
16. Yeşaya, 46:5
17. Çıxış 33:20
18. Şamuel, 2: 2
19. Məzmur, 148:13.
20. Yeremya, 23:24.
21. Midraş Tahilim, 103 A.
22. Berşit Rabba, 68:10.

Onun üçün qeyri-mümkün heç bir şey yoxdur. Müqəddəs kitabda Həzrət Daniel bu haqda deyir: "Allahın adı əbədi olaraq izzətlənsin! Çünki hikmət və qüdrət Ona məxsusdur. Vaxtı və dövrü dəyişdirən Odur. Dərin və gizli sirləri O açar, Qaranlıqda qalanı O bilər. İşıqla əhatə olunan Odur."[23]

Diqqət etmək lazımdır ki, yəhudi dinində ən əsas və bünövrə olaraq, Allahın mütləq qüdrəti göz önünə çəkilir. Xristianlıqda "məhəbbət dini" şüarı və islamda "rəhmət" prinsipi qabardıldığı və bununla tanındığı kimi, yəhudilik demək olar ki, qüdrət dinidir. Mütləq qüdrətə sahib olan Allahın yeganə tayfasının dini kimi tanıtdırılır.

Əhdi-ətiqdə dəfələrlə Allahın mütləq qüdrətinə təkid edilir. Deyilir ki, ancaq Rəbb həqiqi Allahdır. Var olan Allahdır, Əbədi Padşah Odur. Qəzəbindən dünya titrəyər, hiddətinin qarşısında millətlər dura bilməz.[24]

Salnamələrdə deyilir: "Ya Rəbb, əzəmət, qüdrət, cəlal, zəfər və şöhrət Sənə məxsusdur, çünki göydə və yerdə olan hər şey Sənindir. Ya Rəbb, padşahlıq Sənindir və Hökmdar olaraq hər şeydən ucasan. Var-dövlətlə şöhrət Səndən gəlir və Sən hər şeyə hökmranlıq edirsən. Hər kəsi yüksəltmək və gücləndirmək üçün qüdrət və güc Sənin əlindədir. İndi, ey Allahımız, biz Sənə şükür edirik və izzətli adına həmd edirik."[25]

Yaxud yazılır: "Qüdrətlə qüvvət Sənin əlindədir və heç kim Sənə qarşı dura bilməz."[26]

### 7- Allahın sonsuz elmi

Yəhudi alimlərinin fikrincə, Allah-təala mütləq elmə malikdir və gələcəkdə baş verən hər bir şeyə agahdır. [27]

Çünki Rəbb hər şeyi bilən Allahdır, [28] Allah üçün məxfi olan heç bir şey yoxdur. "Allahın adı əbədi olaraq izzətlənsin!... Dərin və gizli sirləri O açar, Qaranlıqda qalanı O bilər. İşıqla əhatə olunan Odur."[29]

Yəhudilərin müqəddəs kitabı Allahın elmində şəkk edənləri ağılsız sayır. Təəccüblə, "necə ola bilər ki, Yaradan yaratdığı şeyin hər bir zərrəsinə və davamiyyətindəki həyatının hər bit nöqtəsinə agah olmasın?"

deyə sual verir. Necə ki deyilir: "Öz niyyətlərini Rəbdən gizlətməyə çalışanların vay halına! Qaranlıqda iş görən bu adamlar «Bizi kim görür, kim tanıyır?- deyirlər. Bu nə cür ağılsız düşüncədir! Heç dulusçunu gil ilə bir tutmaq olarmı? Düzəldilən əşya onu düzəldən barədə O məni düzəltmədi- deyərmi? Qab onu yaradan barədə O heç nə anlamır- deyərmi?"[30]

### 8- Allahın əbədi və əzəli olması

Yəhudi alimləri Allah-təalanın əbədi və əzəli olmasına etiqad bəsləyirlər. Bu haqda onlar müxtəlif mənbələrdə təkidlə Allahın əbədi və əzəli olmasına bəyan etmişlər.[31]

Tövratda da bu haqda çox saylı məlumatlar mövcuddur. Orada deyilir: "Çünki əlimi göylərə qaldırıb belə bəyan edirəm: "Əbədi Varlığıma and olsun!"[32] Yaxud yazılır: "Pənahgahın əzəli əbədi Allahdır."[33]

---

23. Daniel, 2:20-22
24. Yeremya,10:10
25. Salnamələr (1), 29:11-13
26. Salnamələr (2) 20:6
27. Sanhedrin, 90B
28. Şamuel, 2:3
29. Daniel, 2:20-22
30. Yeşaya, 29:15-16; Berşit Rabba, 1:24
31. Baraxut, 28B

### 9- Allahın pak, kamil və nöqsansız olması

Yəhudi alimləri daim Allah-təalanın paklığına, kamilliyinə və nöqsansızlığına təkid edirlər. Bu paklıq və kamillik, hər bir mənaya şamildir. İstər qüdrət və ehtiyacsızlığı, istərsə də, pis əməllərdən uzaqlığına şamildir. "Yeşua xalqa dedi: Rəbbə qulluq edə bilməzsiniz, çünki O, müqəddəs Allahdır."[34]

Həmçinin deyilir: "Allahınız Rəbb Mənəm. Özünüzü təqdis edin və müqəddəs olun, çünki Mən müqəddəsəm; Çünki Allahınız olmaq üçün sizi Misir torpağından çıxaran Rəbb Mənəm. Müqəddəs olun, çünki Mən müqəddəsəm."[35]

Yaxud Əhdi-ətiqdə Allah-təala Musaya deyir ki; "Bütün İsrail övladlarının icmasına bəyan edib de: Müqəddəs olun, çünki Mən Allahınız Rəbb müqəddəsəm."[36]

Tövratın başqa bir yerində isə deyilir: "Allah insan deyil ki, yalan söyləsin, bəşər oğlu deyil ki, fikrini dəyişdirsin. Dediyini həyata keçirməzmi? Verdiyi sözü yerinə yetirməzmi?"[37]

### 10- Allahın ədalətli olması

Əhdi-ətiqin, Təlmudun və sair müqəddəs kitabların təfsirçiləri daim Allahın ədalətinə təkid edir və buna iman gətirməyin zərurətinə diqqət çəkirlər. Onlar Tövratdan və sair müqəddəs kitablardan nümunələr gətirirlər: "Sadiq Allahdır, heç zaman haqsızlıq etməz, Adil və doğru olan Odur."[38]

Tövrat Allahı "İşləri kamil Qaya" adlandırır. Bundan məqsəd, Allahın bütün işlərinin haqq-ədalət üzərində qurulmasına və möhkəm, nöqsansız olmasına diqqət çəkməkdir.[39] Yaxud Tövratda Allahın hökmran, tərəfkeşlik etməyən, rüşvət almayan, böyük, qüdrətli, zəhmli Allah olduğu söylənilir.[40]

Bundan əlavə, Tövratda Həzrət İbrahimin Allaha belə müraciət etdiyini görürük: "Axı Sən bunu etməzsən, saleh adamı günahkarla birgə öldürməzsən. Saleh adamın aqibətini günahkarınkı kimi etməzsən, Sən bunu eləməzsən. Bütün dünyanın Hakimi belə ədalətsizlik etməz."[41]

### 11- Allahın rəhimli olması

Allahın rəhimli olması haqda, yəhudi alimləri ortaq fikirdədirlər. Lakin diqqət etmək lazımdır ki, yəhudilikdə Allahın feli sifərlərinin yəhudi xalqına xas olmasına etiqad bəslənilir. O cümlədən də, Allahın yəhudilərə xüsusi olaraq rəhimli olması qeyd edilir. Lakin yəhudi alimlərinin şəxsi fikirlərinə və müqəddəs kitablarında Allahı yəhudin tayfasına məxsus etmələrinə baxmayaraq, Əhdi-ətiqi araşdırdıqda, daha ülvi və ali mənaların şahidi oluruq.

"Onlara de: "Varlığıma and olsun, pis adamın ölümündən yox, onun öz yolundan dönüb yaşamasından zövq alıram" Xudavənd Rəbb bəyan edir."[42]

---

32. Qanunun təkrarı, 32:40
33. Qanunun təkrarı, 33:27
34. Yeşua, 24:19
35. Levililər, 11:44-45
36. Levililər 19:1-2
37. Saylar, 23: 19
38. Qanunun təkrarı, 32:4: Bəraxut, 10 A
39. Qanunun təkrarı, 32:4
40. Qanunun təkrarı, 10:17
41. Varlıq, 18:25
42. Hezegel, 33:11; Mişna Avuut, 3:15

## Müqəddəs mənbələrdə Allahın cismani təsviri

Təəccübləndirici haldır ki, yəhudilərin müqəddəs kitabları Allahı belə gözəl şəkildə vəsf etdiyinə baxmayaraq, çoxsaylı digər fəsil və cümlələrində Onu sadə bir insandan da aşağı səviyyəyə endirmişdir.

### 1- Allahın cisim və insani xüsusiyyətlərə malik olması

Müqəddəs kitaba görə, Allah insan kimidir, saçı, hörükləri və paltarları var. "Nəhayət, mən gördüm ki, Taxtlar quruldu və Əzəldən Var Olan oturdu. Onun əynində qar kimi bəyaz paltar var idi, Saçları yun kimi ağappaq idi. Taxtı alov dilləri tək, çarxları yanar od kimi idi."[43]

Allah gözlə görülə bilər, qeyb olur və iki ayağı üstə yol gedir. Tövrata görə, Musa Harun, Nadav, Avihu və İsrail ağsaqqallarından yetmiş nəfərlə birgə çıxıb, İsrailin Allahını görürlər. Onun ayaqları altında göy yaqutdan döşəməyə bənzər, səmanın özü kimi aydın bir şey olduğunu müşahidə edirlər.[44] Tövratda deyilir: "Rəbb Musa ilə üz-üzə, dostu ilə söhbət etdiyi kimi danışardı."[45]

Tövratda yazılana əsasən, Adəm və Həvva günün sərinliyində bağda gəzişən Allahın (ayaq) səsini eşidirlər.[46] Həmçinin oxuyuruq ki, Allah Yaqubla danışdığı yerdə onun yanından yuxarı çəkilir. Göylərə ucalır.[47] Tövrata görə, Allah İbrahimlə bir süfrədə əyləşərək yemək yeyir. İbrahim (ə) Onun ayağını yuyur və xəmirdən hazırlanmış çörəyə, yağa, südə, qızardılmış dana ətinə qonaq edir.[48]

### 2- Allahın elminin məhdud olması

Tövratın müxtəlif yerlərində Allahın elminin məhdud olması, ən adi məsələlərə belə agah olmaması qeyd edilir.

"Rəbb yenə dedi: Sodom və Homorraya qarşı qalxan fəryad böyük, oranın adamlarının günahı çox ağırdır. Buna görə də aşağı enib baxacağam ki, Mənə çatan fəryadın doğru olub-olmadığını bilim."[49]

Varlıq, 1-ci fəs. 1-26-cı cümlələrə istinadən, Allahın dünyanı yaradarkən, ən adi varlıqların keyfiyyətindən xəbərsiz olduğunu bəyan edir. Yaratdıqdan sonra onun yaxşı olduğuna agah olur. Tövrata görə, başlanğıcda Allah göyləri və yeri yaradır. Yer quruluşsuz və boş, dərin sular üzərində qaranlıq hökm etdiyi zaman, Allahın Ruhu suların üzərində dolaşır. Allah deyir: "Qoy işıq olsun". İşıq olur. Allah görür ki, işıq yaxşıdır. Sonra O, işığı qaranlıqdan ayırır. Allah qurunu "yer", su yığınlarını isə "dənizlər" adlandırdıqdan sonra, görür ki, bu da yaxşıdır. Yalnız ağaclar meyvə gətirdikdən sonra Allah görür ki, bu yaxşıdır. Allah ulduzları göy qübbəsinə qoydurdan sonra yer üzünə işıq saçdığına görə, gündüzü və gecəni idarə etdiyi və işığı qaranlıqdan ayırdığı üçün onun yaxşı olduğunu anlayır. Ümumiyyətlə, Tövrata görə Allah hər növ çöl heyvanlarını, hər növ ev heyvanlarını, yerdə sürünən bütün canlıları, bütün qanadlı quşları, nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları yaratdıqdan sonra anlayır ki, bu, yaxşıdır.

Bibliya Allahı elmsizlikdə adi bir insan həddindən də aşağıya endirir. Fironu və onun ətrafındakı zalım şəxsləri «gecə cəzalandırmaq» fikrinə düşən «Allah» (guya) onların evini tanı-

43. Daniel, 7 fəs. 8-ci cüm
44. Çıxış, 24:9-10
45. Çıxış, 33:11
46. Varlıq, 3:8
47. Varlıq, 35:13
48. Varlıq, 18-ci fəs. 1-16-cı cüm.
49. Varlıq, 18:20-21

madığı üçün, Musaya (ə) quzu kəsməyi və onun qanını mömin adamların qapısına vurmağı tapşırır.

Çünki möminlərin evini zalımların evi ilə səhv salacağından qorxur. Quzu qanı isə bir nişanə kimi ona kömək ola bilir. Çıxış, 12-ci fəsil, 12-13-cü cümlələrdə yazılır: "Mən isə o gecə Misir torpağından keçəcəyəm. Misir torpağında olan həm insanların bütün ilk oğullarını, həm də heyvanların bütün ilk balalarını öldürəcəm. Bütün Misir allahlarına da cəza verəcəyəm. Rəbb Mənəm. Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək."

### 3- Allahın kamil olmaması

Xristianların müqəddəs saydıqları bu kitaba əsasən Allah tutduğu səhv əməllərdən peşman olaraq kədərlənir. O guya insanı yaratdığına görə, başqa bir yerdə isə Talutu (Şaulu) padşah etdiyinə peşman olaraq ürəyində kədərlənir. Çünki Talut Allahın əmrlərinə itaət etməyərək sözlərini yerinə yetirməyir.[50] Allah qəzəblənərək deyir ki, yaratdığım insanları yer üzündən siləcəyəm, bunu insanlarla birgə heyvanların, sürünənlərin və quşların da başına gətirəcəyəm, çünki onları yaratmağıma peşman olmuşam.[51]

### 4- Allahın mütləq qüdrətə malik olmaması

Yəhudilərin müqəddəs kitablarının yazdığına görə, Allah mütləq qüdrətə malik deyil. Hətta insanların qarşısında belə acizdir. Tövratda Allahın insanlardan qorxduğu qeyd olunur. Varlıq, 11-ci fəsil, 1-11-ci cümlələrdə uca bir qüllə tikməyə başlayan insanları görən Allah bundan xoflanaraq öz mələklərinə deyir: "Budur, onlar vahid xalqdır, dilləri də eynidir. Bundan sonra fikirlərində tutduqları hər şeyi etməyə qadir olacaqlar. Gəlin aşağı düşək, onların dillərini elə dəyişək ki, bir-birlərini başa düşməsinlər."

Açıq deyilməsə də, Varlıq, 2-ci fəsil, 2-ci cümlələr və 7-ci fəsil, 22-ci cümlədə belə bir fikir hasil olur ki, altı günlük yaradıcılıqdan sonra Allah yorulur və buna görə də «yeddinci günü» (şənbə) özü üçün rahatlıq günü sayır, istirahət etməyə başlayır. "Çünki altı gün ərzində Rəbb göyləri və yeri, dənizi və kainatdakı hər şeyi yaratdı, yeddinci gün isə istirahət etdi."[52]

Allahı kiçildən fəsillərdən biri də Varlıq, 32-ci fəsil, 22-30-cu cümlələrdir. Burada gecədən sübhədək Yaqubla (ə) güləşən Allah, ona məğlub olur və ombasının oynağı yerindən çıxır. Allah Yaquba (ə) yalvararaq Onu buraxmasını xahiş edir. Allaha qələbə çaldığı üçün adını İsrail qoyur.

Tövratda bu hadisə tam şəkildə belə təsvir edilir ki, Yaqub (ə) gecə qalxıb iki arvadını, iki cariyəsini və on bir uşağını götürərək Yabboq çayını keçir. Sonra Yaqub (ə) tək qalır. Dan yeri sökülənə qədər bir Şəxs (Allah) onunla güləşir. Yaquba üstün gələ bilmədiyini görüb onun budunun oynağına zərbə vurur. O Şəxslə güləşərkən Yaqubun (ə) budunun oynağı zədələnir.

O Şəxs acizanə deyir: Burax, gedim, çünki səhər açılır. Yaqubun (ə) əlinə fürsət düşərək, deyir: Mənə xeyir-dua verməsən, Səni buraxmaram. Şəxs soruşur: Adın nədir? O deyir: Yaqub. O Şəxs "Artıq sənə Yaqub deyil, İsrail deyiləcək, çünki sən Allahla və insanlarla güləşib üstün gəlmisən". Yaqub Allahı üz-üzə görüb və salamat qaldığı üçün Allahla güləşdiyi yerin adını Peniel qoyur.

Bibliyanın müasir tədqiqatçılarından olan Q. Qei deyir: «Müqəddəs kitab çoxallahlıq mifologiyasını dəfələrlə aşkar şəkildə özündə əks etdirir.» Tövratda oxuyuruq: "Ya Rəbb, allahlar

---

50. Şamuel (1), 15:11; Şamuel (1), 15:35
51. Varlıq, 6-cı fəs. 6-7-ci cüm
52. Çıxış, 20:11

arasında Sənin kimisi varmı?"[53] Zəburda deyilir: "Ey Xudavənd, allahlar arasında Sənin kimisi yoxdur!"[54] "Axı Rəbb böyük Allahdır. Bütün allahlar üzərində əzəmətli Padşahdır."[55]

Əlbəttə, bəzi yəhudi tədqiqatçılar, burada "allahlar"dan məqsədin padşahlar olduğunu iddia edir.

Bu məsələ, qismən həqiqətə uyğun olsa da,[56] Zəburdakı bir sıra məsələlərin diqqət xaricində qalması mümkün deyil. Zəburda mövcud olan çoxsaylı nümunələrə görə «Allahın» dünyanın yaranmasından əvvəl bir sıra əjdahalarla mübarizə aparmalı olmuşdur. Məsələn: Zəburda Allaha xitabən deyilir: "Sən dənizi Öz qüdrətinlə böldün, dəniz əjdahalarının başlarını əzdin. Sən Livyatanın başlarını əzdin, onu çöl heyvanlarına yem etdin." [57]

Zəbur Livyatanı bir tərəfdən balıq, bir tərəfdən əjdaha, gah Allahın yaratdığı dərkedilməz bir qüvvə, gah da ki Allahla mübarizəyə başlamış güclü varlıq kimi təsvir edir. Başqa bir yerdə qeyd edilir ki, bu balığın gündəlik yeməyi uzunluğu üç yüz mil olan iri buynuzlu balıqlardır. [58]

Təlmudda isə bu balıq barədə belə yazılır: «Allah gündə 12 saat məşğul olur. Birinci 3 saat oturub tövratı oxuyur. İkinci 3 saatı kainatı mühakimə edir. Əgər o, dünyanı dağıtmaq qərarına gəlirsə, mühakimə taxtından qalxıb mərhəmət taxtına əyləşir. Üçüncü 3 saat isə Tanrı bütün canlıların ruzisini verir. Dördüncü üç saat da isə Livyatan balığı ilə oynayır.»

Təlmudda Allah çox vaxt tam maddi şəkildə və cismi xüsusiyyətlər ilə təsvir edilir: Allah namaz qılır və Tövrat oxuyur.[59] Bəndələrinin çətinliklərinə və əzab-əziyyətlərinə ağlayır.[60] Xəstələrə təsəlli verir və dəfn mərasimlərində iştirak edir.[61]

## Yəhudilikdə səlbi ilahiyyat anlayışı

Yəhudi filosofları və sxolastikləri Filonun[62] (m. ə. 15 – m. s. 50) təsirlənərək, Allahın sifətlərini tanımağın, ona xüsusiyyətlər nisbət verməyin mümkünsüz olmasını ortaya atmışlar.

İbrahim bin Davud (1110-1180) deyirdi ki, Allaha aid olan bütün xüsusiyyətləri, yalnız səlbi şəkildə, yəni; əksinin Onda olmamasını söyləyərək Yaradana nisbət verə bilərik.[63]

Musa bin Məymun "Dəlalətül-hairin" kitabının çox böyük hissəsini bu məsələyə ayırmışdır. O, demək olar ki, yəhudilikdəki səlbi ilahiyyatın ən bariz şəxsiyyətlərindəndir. Onun fikrincə, hətta Allahın bir olduğunu söyləmək də, düzgün deyildir. Tövhid belə, səlbi şəkildə bəyan edilməlidir. Yəni; "Allah birdir" söyləmək əvəzinə, "Allah iki və ya çox deyildir" demək lazımdır. Çünki, zat vahiddirsə, onun sifət və xüsusiyyətləri olmamalıdır. Əks təqdirdə vahid olmayacaqdır.[64]

İbn Məynun fikrincə, tələffüz etdiyimiz bütün kamal xüsusiyyətləri ən ali mənasında belə Allaha nisbət versən yenə də naqisdir.[65]

Allaha müsbət xüsusiyyətləri nisbət verdikdə, onun çoxlu xüsusiyyətlərinin olmasına inanırıq, bu da bir növ şirkə doğru aparır.

---

53. Çıxış, 15:11
54. Məzmur, 86:8
55. Məzmur, 95:3
56 Belə nəzərə gəlir ki, həmin tədqiqatçıların sözlərində həqiqət vardır. Çünki, Əhdi-ətiqin bir çox yerlərində padşahlara "allahlar" deyə müraciət edilib. Burada "allah" padşah mənasına işlədilib. Nümunə olaraq, Məzmur, 82:1-8 baxın.
57. Zəbur, 74-cü fəs. 13-14-ci cüm
58. Yeşaya, 27:1; Əyyub, 41:1-34; Məzmur, 104:26
59. Evudaraza, 3B
60. Həgiga, 5B
61. Barəşit Rabba, 8:13
62. Runia, 1998, p 359
63. Samuelson, 1998, p 606
64. Dəlalətül-hairin, səh. 143, İbn Məymun, Ankara, 1972
65. Dəlalətül-hairin, səh. 135, İbn Məymun

Dilimizdə onun bir olmasını söyləsək də, qəlbimiz bu xüsusiyyətləri nəzərə alaraq, Onu çoxaldır. Amma yalnız onda olmayan xüsusiyyətləri dilə gətirsək, buna inansaq, söylədiyimiz problemlər meydana çıxmayacaqdır. Səlbi sifətlər bizə imkan verir ki Allahı daha yaxşı tanıyaq.

Allahı hər nə qədər xüsusiyyətlərdən tənzih edərək vəsf etsək, bir o qədər tanımış olarıq. Bu, qüsursuz bir vəsf yoludur.[66]

## XRİSTİANLIQDA ALLAH

Xristianlıqda Allah haqqında olan inam müxtəlif çalarlara malikdir. Müqəddəs saydıqları kitablarda Allah bir-birinə zidd olan ibarətlərlə təsvir edilmişdir. Üstəlik, Müqəddəs Üçlüyə olan inam bu məsələni daha da qəliz və çıxılmaz hala salmışdır. Buna görə də, xristianlar sorğu-sualsız iman gətirməyə və inanmağa üz gətirmişlər. Amma bununla belə müxaliflərin çoxsaylı iradlarının və yunan fəlsəfəsinin qarşısında davam gətirməyərək, bir sıra islahat işləri aparmışdlar.

Gəlin birlikdə xristianlığın Allah haqqındakı bəzi baxışlarını araşdıraq:

### 1- Allahın birliyi

İncildə Allahın varlığına təkid edilərək, onu belə vəsf edir: "Var Olmuş, Var olan, Küll-ixtiyar sahibi Rəbb Allah müqəddəsdir."[67]

Əhdi-cədiddə Allahın birliyi haqda bir sıra mətləblər mövcuddur. Orada oxuyuruq: "Ruh bir, iman bir, vəftiz bir, hamının Allahı və Atası birdir."[68] "Qanunverən və Hakim birdir, xilas etməyə və həlak etməyə qadir olan Odur."[69]

Əhdi-cədiddə bütlərə qurban kəsilməsi ilə mübarizə aparılır və bütlərə kəsilən qurban ətlərinin yeyilməməsinə göstəriş verilir. Beləliklə, bütlərə təqdim olunan qurban ətinin yeyilməsi barəsində bildirlir ki, "büt dünyada heç nədir" və "bir olan Allahdan başqası yoxdur". Yerdə və yaxud göydə "allahlar" adlandırılanlara, çoxlu "allahlar" və "sahiblərə" inananlara qarşı, bir Allaha etiqad bəslənilməsinə təkid edilir.[70] Əhdi-cədiddə oxuyuruq: "Əsrlərin Padşahı, ölməz, görünməz və bir olan Allaha əbədi olaraq hörmət və izzət olsun! Amin."[71]

### 2- Allahın mütləq elmə malik olması

Əhdi-cədidin bəzi cümlələrində Allahın mütləq elmə malik olmasına təkid edilir, Onun hər bir şeyə agah olmasına diqqət çəkilir. Belə ki, heç bir yaranış ona gizli deyil. Bütün şeylər onun gözündə açıq və aydındır, onun üçün gizli deyil.[72]

### 3- Allahın gözlə görülməməsi

Allahın gözlə görünməzliyi barəsində isə, Əhdi-cədiddə "Onu insanlardan heç kəs görməyib və görə də bilməz."[73] kimi cümlələri misal gətirmək olar.

### 4- Allahın mütləq qüdrətə sahib olması

66. Dəlalətül-hairin, səh. 139-140, İbn Məymun
67. Yəhya vəhy, 4-cü fəsil, 8-ci cümlə
68. Efeslilərə, 4:5-6
69.Yaqub, 4:12; Yəhya, 5:44
70. Korinflilərə (1) 8:4-6
71. Timoteyə (1), 1:17
72. Matta, 10-cu fəsil, 30-cu cümlə; İbranilərə, 4-cü fəsil, 13-cü cümlə
73. Timoteyə, (1), 6:16

İncilə görə Allah mütləq qüdrət sahibidir. Heç bir şey onun qüdrəti xaricində deyil. Allah üçün hər şey mümkündür.[74]

## 5- Allahın əbədi və əzəli olması

Əhdi-cədidin bəzi cümlələrində Allahın əbədi və əzəli bir varlıq olmasına diqqət çəkilir. Allahı "Yeganə ölməzliyə malik olan və əlçatmaz nurda yaşayan" adlandırır.[75]

## 6- Allahın ruzi verən olması

Əhdi-cədiddə dəfələrlə Allahın "Rəzzaq" (ruzi bəxş edən) xüsusiyyətinə təkid edilərək, xristianlara bu barədə diqqətli olmaları tövsiyə edilir. İlk növbədə zəngin insanlara təkəbbürlü olmamaları və dünya malına uymamaları tövsiyə edilir. "Bu dövrdə varlı olanlara buyur ki, təkəbbürlü olmasınlar və gəldi-gedər var-dövlətə yox, zövq almağımız üçün bizə hər şeyi bol-bol verən Allaha ümid bəsləsinlər."[76]

İncildə Həzrət İsanın (ə) təlimlərindən biri də, məhz Allahın ruzi bəxş edən və Rəzzaq olmasıdır. İsa (ə) "Nə yeyəcəyik?" və yaxud "Nə içəcəyik?", "Nə geyinəcəyik?" -deyə qayğı çəkməməyə çağırır. Çünki Allah hər kəsin ruzisini bəxş edir. O, göydə uçan quşları misal çəkərək, onların insanlar kimi əkinçiliklə, ticarətlə məşğul olmadıqlarını, lakin Allah tərəfindən ruzi ilə təmin edildiklərini söyləyir. Ardınca, çöl zanbaqlarını misal çəkir. Onların zəhmətsiz böyüyüb boy atdığına baxmalarını istəyir. Ardınca insanlara müraciətlə: "Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz qayğı çəkməklə ömrünü bir anlıq belə, uzada bilər? Nəyə görə geyim üçün qayğı çəkirsiniz?

Ey imanı az olanlar, bu gün olub sabah ocağa atılan çöl otunu Allah belə geyindirirsə, sizi geyindirəcəyi daha da yəqin deyilmi? Beləliklə, "Nə yeyəcəyik?", "Nə içəcəyik?" və yaxud "Nə geyəcəyik?" deyə qayğı çəkməyin. Beləliklə, sabahın qayğısını çəkməyin." -deyir.[77]

## 7- Allahın ədalətli olması

İncildə müxtəlif cümlələrdə Allahın ədalətinə təkid edilərək, inşalara Onun adil hökmranlığına üz gətirmələri tövsiyə olunur. Yəhya Məsihdən eşitdiyini söyləyərək, Allahı nur adlandırır. Allahda zərrə qədər də qaranlıq olmamasına işarə edərək, deyir: "Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək."[78]

## Əhdi-cədiddə Allahın cismani təsviri

Ümumiyyətlə, ilk növbədə, "Üç üqnum"a olan inam və Ata Allah, Oğul Allah (İsa) və Ruhül-qüdsün "Vahid Allahı" təşkil verməsi və Allahın bəndələrinin günahını yuması üçün oğlunu (özünü) fəda etməsi, çarmıxa çəkilməsi inancı xristianlıqda Allahın cismani təsəvvürünün bariz nümunəsidir. Təəccübləndirici haldır ki, Allahı belə gözəl şəkildə vəsf edən Əhdi-cədidin çoxsaylı digər fəsil və cümlələrində Onu sadə bir insandan da aşağı səviyyəyə endirmişdir. «Vəhy» kitabında çox qəribə və ağlasığmaz fantastika, xəyal aləminə dalan Yəhya, Allahı müxtəlif cismani formalarda təsvir edir.

Yəhya, 8-ci fəsil, 28-ci cümlə, 20-ci fəsil, 31-ci cümlə və 1-ci fəsil, 1-14-cü cümlələrdə İsanı (ə) Allahın yeganə, özündən doğulmuş həqiqi (ayrılmış) oğlu, Allahın özü sayması, Mark, 1-ci fəs, 10-11-ci cümlələrdə, Ruhun (Allahın) göyərçin kimi İsanın üzərinə enməsi də, diqqət mərkəzindən qaçmamalıdır.

---

74. Matta, 19-cu fəsil, 25-ci cümlə
75. Timoteyə, (1), 6:17
76. Timoteyə, (1), 6:17

77. Matta, 6:25-30
78. Yəhya incili, (1), 1:5 və 9

"Vəhy", 1-ci fəsil, 10-18-ci cümlələrə diqqət etdikdə isə təəccüblənməmək olmur. Yəhya "Ruhun hakimiyyəti" altına düşdüyünü və arxasında boru səsinə oxşar yüksək tonlu səs eşitdiyini iddia edir. Yüksək tonlu səsin sahibi ona müşahidə edəcəyi hər bir şeyi kitaba yazmasını tələb edir. Yəhya geri çevirildiyi zaman, onunla danışanın kim olduğunu görür. Döndükdə yeddi qızıl çıraqdan (şamdan) və onların arasında, ayağadək uzun paltar geymiş, sinəsinə qızıl qurşaq taxmış, insan oğluna bənzər "Birini" (Allahı) görür.

Yəhya Allahın başı və saqqalının yun kimi, qar tək ağ, gözlərinin isə atəş alovu kimi olmasını iddia edir. "Onun" səsinin gur-gur axan suların səsi kimi olduğuna, sağ əlində yeddi ulduz, ağzından iti «iki ağızlı qılınc» çıxdığına təkid edir. Yəhya Allahın üzünün isə bütün qüdrətilə parlayan günəş kimi olmasını söyləyir. Yəhya "Vəhy"də deyir: "Onu görən kimi ayaqlarına ölü kimi yıxıldım. O, sağ əlini mənim üstümə qoyub dedi: Qorxma! Birinci, Axırıncı və Diri olan Mənəm!"[79]

Vəhy, 4-cü fəsil, 2-5-ci cümlələrdə, Allahın taxtda oturduğu, görünüşü yəşəm və qırmızı əqiq daşına bənzədiyi və taxtın ətrafında zümrüdə bənzər göy qurşağı olduğu söylənilir.

Taxtın ətrafında 24 ayrı taxt, taxtlar üzərində oturan ağ paltar geymiş və başlarında qızıl tac olan 24 ağsaqqalların olduğu söylənilir. Taxtdan şimşəklər, göy gurultuları və uğultular çıxır, onun önündə odla yanan yeddi məşəldə Allahın yeddi ruhunun olması deyilir. Yanındakı əcaib məxluqlar dayanmadan Allaha deyirdilər: Var Olmuş, Var Olan, Küll-ixtiyar sahibi Rəbb Allah müqəddəsdir, müqəddəsdir, müqəddəsdir![80]

## Xristianlıqda Allahın varlığına dəlillər

Xristianlıqda iman gətirmək və sorğu-sualsız Allaha itaət edərək, Onu dərk etmək əsasdır. Buna görə də, uzun illər boyu Yaradanın varlığına dəlil-sübut gətirmək haqda fikir ortaya atılmamışdır. Əsl həqiqətdə, Allaha inanıb, İsaya iman gətirib, Onu dərk etmək tələb edilmişdir. Lakin zaman keçdikcə, elm və fəlsəfənin yaratdığı suallar və ağır şübhələr altında, bəzi xristian alimləri Allahın varlığına dəlillər gətirməyə başlamışdır. Onların arasında qədim dövrün alimlərindən ən seçilmişi Tomas Akvinasdır.[81]

O, düşünürdü ki, məhəbbət ən gözəl yol olsa da, Allahı yalnız yaratdıqlarında dərk etmək mümkündür. Necə ki, bir rəssamı çəkdiyi rəsm əsərinindən dərk etmək lazımdır. Yaradan hər bir varlıqda öz imzasını qoymuşdur. Biz Onu imzasına baxaraq tanımalıyıq. Tomas bütpərəstlərin və yunan filosoflarının qarşısında Allahın varlığını sübut etmək üçün beş dəlil-beş yol göstərmişdir:

### *1- Hərəkət dəlili*

Dünya bütünlüklə, ən xırda üzvləri ilə birgə hərəkət edir, dəyişilir. Yerin günəş ətrafında fırlanması,[82] yağışın yağması və sair. Deməli, onu hərəkətə etdirən hərəkətsiz bir qüdrət vardır. Həmin qüdrət Allahdır.

---

79 Vəhy, 1-ci fəsil, 10-18-ci cümlələr

80 Vəhy, 4-cü fəsil, 2-5-ci cümlələr

81 Tomas Akvinas (Thomas Aquinas) (1225-1274), onu Foma Akvinat da adlandırırlar, orta əsr filosofu və ilahiyyatçısı, məsihi sxolastikasının sistemləşdiricisi, tomizmin banisi. İtaliyanın Akvino şəhərində, zadəgan ailəsində dünyaya göz açmışdır. Gənc yaşlarında Dominikan ordeninin mənsublarından olmuşdur. İlk təhsilini monastır məktəbində almış, daha sonra Neapol, Paris, Köln şəhərlərində universitetdə oxumuşdur. Əsas əsərləri: "Bütpərəstlər əleyhinə külliyyat" (1261-64), "Teologiya külliyyatı" (1265-73). 1879-cu ildə Tomas Akvinasın sxolastik sistemi katolikliyin yeganə həqiqi fəlsəfəsi elan olunmuşdur.

82. Kilsə tarix boyu yerin günəş ətrafında fırlanması fikrinin tərəfdarı olmuşdur.

Çünki onu hərəkətə gətirən, Allahdan qeyrisidirsə, özü də hərəkət edirsə, bir hərəkətə gətirənə ehtiyac duyacaq. Bununla da, hərəkət etdirən və özü də hərəkət edən qüdrətlər silsiləsi yaranacaq. Deməli, bu silsilə hərəkətsiz bir qüdrətə sonlanmalıdır.

***2- Səbəb-nəticə dəlili***

Hər bir hadisə, yaranış, varlıq səbəbsiz yerə mövcud ola bilməz. Yəni; hər bir nəticənin səbəbi vardır. Məxluq varsa, onu yaradan və yaradılmağa ehtiyacı olmayan Xaliq də vardır. Çünki yaranmışların səbəbi, özü də yaranmağa və var olmağa ehtiyaclı olsa, onun da bir səbəbə ehtiyacı olacaq. Bu ehtiyaclı səbəblər, yaradanlar silsiləsinə son vermək üçün, özündən var olan, yaradılmağa ehtiyacı olmayan, varlığın səbəbi olan bir qüdrət lazımdır. Bu da Allahdır.

***3- Zəruri və mümkün varlıqlar dəlili***

Dünya başdan başa var olması və yox olması mümkün olan varlıqlardan təşkil tapmışdır. Əvvəllər olmayıb, sonradan yaranan bu varlıqları vücuda gətirən, əbədi-əzəli və varlığı özünə bağlı bir zəruri varlıq olmalıdır. Həmin varlıq Allahdır.

Çünki, bütün varlıqlar sonradan vücuda gəlmiş, olması və olmaması mümkün olan varlıqlardır. Onları yaradan özünə bağlı, varlığı zəruri və ehtiyacsız bir zat olmalıdır ki, bu mümkün varlıqlar silsiləsi sona çata bilsin.

***4- Mənəvi duyğular dəlili***

Tomasın fikrincə, insanlar doğruluq, xeyirxahlıq, ədalət, sədaqət və sair kimi pak hisslərə malikdir. Bu hisslər maddi deyil, deməli onları bizə bəxş edən ali ülvi hisslərin yaradanı və özüdür. Yəni; xeyirxahlığın, məhəbbətin, doğruluğun özü olan Allahdır.

***5- Hədəf dəlili***

Dünyaya baxdığımız zaman, aşkar şəkildə orada hədəf və tədbirin olmasını müşahidə edirik. Hər bir məxluq bihudə deyil, müəyyən bi hədəfə qulluq etmək üçün yaradılmışdır. Yəni; hər məxluqun yaradılış aləmində öz rolu vardır. Deməli, tədbir və hədəf varsa, onu tənzimləyən, hədəfləyən bir sonsuz və qüsursuz ağıl və düşüncə sahibi olan varlıq da mövcuddur. Həmin varlıq Allahdır.[83]

Əlbəttə, Tomas Akvinasa qarşı, Duns Skot və onun fransiskan ordeni ətrafında yığışan tələbələri müxtəlif dəlillər gətirərək, onun bu sübutlarının nöqsanlı olduğunu iddia etmişlər. Onların Tomasa ən önəmli iradları bunlardan ibarət idi ki, hər beş dəlildə "hərəkətsiz", "səbəbə ehtiyacı olmayan", "varlığı əzəli və zəruri olan", sırf ali mənəvi duyğuya malik olan və pis xüsusiyyəti olmayan", "özü hədəf məqsədilə yaradılmayan" Allahın varlığını xəyali deyil, həqiqin şəkildə sübut etməkdə acizdir. Həmçinin, Tomas bu dəlillərlə bir-neçə allahın varlığını inkar edə bilməz.[84]

## Xristianlıqda «üç üqnum» əqidəsi

Xristianlar «tövhid»ə etiqadlı olduqlarını iddia etməklə yanaşı, «üç üqnum»a da inamlıdırlar. Məsihi alimləri tarix boyu «üç üqnum əqidəsi»nin izlərini və nişanələrini İncildə axtarmaqla birgə, onun «tövhid»lə heç bir ziddiyyət daşımadığını sübuta yetirmək üçün çalışmışlar. Bu barədə xristian alim və tədqiqatçıları bir-birindən fərqli müxtəlif şəkildə fikirlər yürütmüşlər.

83. Məsihi ilahiyyatı ("Christian Theologi An İntroduction"), Alister E. McGrath, (Blackwell, 2002), səh. 471-472.
84. Məsihi ilahiyyatı, səh. 474

Katoliklər[85] «üç üqnum əqidəsi»ni belə açıqlayırlar: «Üçlük tövhid deməkdir. Biz üç müxtəlif allaha inanmırıq. Amma vahid Allaha inanırıq ki, üç üqnum zatən vahiddir.»[86]

*(Konstantiniyyə şurasının qərarı)* Bu üç üqnum bir Allahlıqda şərik olmaq mənasında deyildir. Onların hər biri vahid və kamil Allahdır: «Ata Allah, elə həmin Oğul Allahdır. Oğul Allah da, Ata Allahın özüdür. Ata Allah və Oğul Allah müqəddəs-ruhun eynidir. Zat və təbii cəhətdən Vahid Allahı təşkil verirlər. *(Tolda şurasının qərarı)*

Bu üç Allahın hər biri həqiqətin özüdür; yəni, Tanrının zatı və əslini təşkil edir.» *(Latron şurasının qərarı)*

«Üç üqnum[87]» bir-birindən fərqli xüsusiyyətlərə də malikdir. Allah birdir amma tənha deyil. «Ata, Oğul və Müqəddəs ruh» təkcə adla deyil, vahid Allahın müxtəlif vücud keyfiyyətləridirlər. Onlar beləcə bir-birilərindən fərqlənirlər.» *(Tolda şurasının qərarı)*

«Bəli, onlar müxtəlif mənşə fərqlərinə malikdirlər. Ata Allah, Oğul Allahı yaradır. Müqəddəs-Ruh onlardan sadir olur. Deməli, Vahid Allah eyni halda üçdür.» *(Latron şurasının qərarı[88])*

Tomas Mişel, «Məsihi ilahiyyatı» adlı kitabında yazır: «Bizim üç Allahın vahid təbiəti barəsində olan anlayışımız belədir: «Bir Allaha inanırıq ki, onun təbiəti üç xüsusiyyətə malikdir. Bir olan Allah, özünün qüdrətli yaradan və həyat bağışlayan tanrı kimi tanıtdırır. Xristianlar onu «Ata Allah» adlandırırlar. Ata Allah, öz «əzəli kəlamı»nı insan İsada (ə) təcəlli edib. Müqəddəs ruh isə onun məxluqatında olan həyatverici və daim fəaliyyətdə olan vücududur.»

Xristianlar da, müsəlmanlar kimi Allahın müxtəlif xüsusiyyətlərə malik olduğuna inanırlar.

Onlar etiqadlıdırlar ki, bu xüsusiyyətlərin arasında üç xüsusiyyət Allahın zatı kimi əbədi, əzəlidir. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1. Allahın ali və əzəli zatı.
2. Allahın əzəli kəlməsi ki, İsa Məsihdə (ə) təcəssüm etmişdir.
3. Allahın həyatverici və daim fəaliyyətdə olan vücudu ki, Müqəddəs ruh adlanır.

Bu sifətlər zati və əzəlidir. Çünki ilahi zatında pərakəndəliyin olması qeyri-mümkündür. Onun zatı daim sabitdir. Söylənilən sifətlər həmişə ilahi zatla birgədir və onun xaricində deyildir. İşarə olunan sifətlər ilahi zat üçün zəruri və əsldir. Onların heç birisini inkar etmək olmaz.

Başqa bir xristian alimi «üç üqnum əqidəsi»ni belə izah edir: «Allahın vahid zatı üç üqnumdan ibarətdir. Doğrudur, yaşadığmız dünyada «üçlük» əqidəsinə uyğun olan bir nümunə ilə üzləşmirik, amma insan ağlı ona misal ola bilər. Belə ki, insan ağlı həm özü ilə məsləhətləşir, həm də alınmış nəticə haqqında fikir yürüdə bilir.»[89]

Henri Tesin həmçinin yazır: «Üç üqnum əqidəsinə olan inam, «üç Allaha inanmaq» demək deyildir. Üç allaha inananlar hər üç Allahın vahid hədəfi güddüyünə etiqadlıdırlar. Amma düzgün əqidə budur ki, Allah həm zatda, həm hədəfdə həm də feldə vahiddir. «Sableus vahid Allahın «üç-

---

85. Katolisizm yunan sözü olub (catholios) «dünyəvi, ümumi» mənasında və xristianlığın əsas cəryanlarından biridir. «Üç üqnum əqidəsi»nə inam, Qiyamət gününə inam, İsanın (ə) canişini kimi Roma papasının ali hakimiyyətinə tabeçiliyin zəruri olmasına etiqad bəsləmək, papanın isməti haqqında ehkamlar və s. katolik kilsəsinin doqmatik xüsusiyyətlərindəndir. Əsasən Qərbi Avropa və Latın Amerikası ölkələrində yayılmışdır. Katolisizmin pravoslavlıqdan kult və kanonik fərqləri ruhanilərin günahsızlığı, xüsusi inkişaf etmiş marianizm və sairdir. Onlar Müqəddəs-ruhun həm «Atadan», həm də «Oğul»dan nazil olduğuna etiqadlıdırlar. Katolisizmin mərkəzi Vatikan inhisarçı burjuaziya ilə ideoloji, siyasi və iqtisadi cəhətdən əlaqəlidir. Neotolizm Katolisizmin rəsmi fəlsəfəsi elan edilmişdir. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 220)

86 SSS, R. 60

87 Üqnum siryani kəlməsi olaraq, «şəxs» ya «əsl» mənasınadır.

88 SSS, R. 60

89. Henri Tesin, «Xristian ilahiyyatı», səh. 96

lükdə» təcəlli etdiyini, lakin zatən «üç» olmadığını söyləyir. Yəni bir olan Allah həm İsa (ə) şəklində təcəssüm etmiş, insanlara nicat vermiş və eyni halda müqəddəs ruh şəklində düşərək bəşərin günahlarını bağışlamışdır. Necə ki bir insan eyni zamanda müğənni, müəllim və dost ola bildiyi kimi, həmçinin ata, oğul və qardaş da adlanır.

Allah da həm Ata, həm oğul və həm də müqəddəs ruh kimi zahir olur. Amma həqiqi şəkildə yox. Bu əqidə «üçlüyün» inkar olunması deməkdir. Çünki onu yalnız zahiri görünüşü adlandırır.»[90] «Düzgün nəzər budur ki, Allah üç şəxsiyyətə malikdir. Ata, Oğul, Müqəddəs ruh. Vahid Allah üç fərqli şəxsiyyət.»[91]

V. M. Miller «Kəlmə Allah idi» cümləsi barəsində belə yazır: «Allah birdir və “Allahın kəlməsi”[92] də Allahdır.»

Pravoslavlar[93] da üç üqnum əqidəsinə inamlıdırlar, sadəcə olaraq onlar Müqəddəs ruhun yalnız atadan zühur etdiyinə təkid edirlər.

## Üç üqnum əqidəsi və ağıl (xristianlıq baxımından)

Artıq xristian alimlərinin özlərinə də bəllidir ki, «üç üqnum əqidəsi» ağıl və məntiqlə uzlaşmaq qabilliyətinə malik deyildir.

Nikiyya şurasında, monoteist xristian Aryus öz politeist fikirləri ilə «üç üqnum əqidəsi»ni dəstəkləyən Atotasyusa etiraz etdi və üçlüyün heç bir ağıl və məntiqə sığmadığını ön plana çəkdi. «Maraqlıdır ki, Atotasyus onun fikirləri ilə tam razı idi və üçlüyün ağıla sığmadığını o da təsdiqləyirdi. Amma ağılı kənara qoyaraq, bu əqidəni dərk etmək üçün onun aciz olduğunu əsas tutan Atotasyus yalnız bu əqidəyə iman gətirməyin zəruri olduğunu söyləyirdi.»[94] Ümumiyyətlə, xristian alimləri bu barədə iki dəstəyə bölünmüşlər:

**1. Ağlın onu rədd etmədiyini və yalnız aciz olduğunu söyləyənlər.**

C. Fərəc və D. Xuri «Pavelin romalılara məktubunun şərhi» əsərinin 139-cu səhifəsində yazırlar: «Qəlbində elə fikirləşmə ki, necə ola bilər, Allah «insan» şəklinə düşsün?!» Çünki bu iş Allaha məxsusdur və bəşər ağlı onu dərk edə bilməz.»

Həmçinin livanlı xristian alimi Səlim ibn Cərcis «üçlüyün müqabilində ağlın aciz olduğunu, amma onu rədd etmədiyini yazır. Səlimin fikrincə, İncildə və adi həyatımızda belə şeylər çoxdur. Hətta çürümüş bədənlərin Qiyamət günü, hamılıqla bir zamanda və eynilə dirilməsi də ağıla sığmır. Lakin biz ona inanmağa və qəbul etməyə məcburuq. Çünki ağıl onu rədd etmir, sadəcə olaraq məhdud məlumatlara malik olduğu üçün onu dərk edə bilmir.»[95]

**2. Ağlın üçlüyü rədd etdiyini, lakin ona iman gətirməyin lazım olduğunu iddia edənlər.**

پرتال جامع علوم انسانی

90. Həmin yer, səh. 88
91. Həmin yer.
92. İsa Məsih (ə)
93. Pravoslavlıq (yunanca ortodoksiya) xristianlığın mühüm cərəyanlarından biri olaraq Şərqi Avropa, Yaxın Şərq və Balkanda yayılmışdır. XI əsrdə Avropanın qərb və şərqində feodalizmin müxtəlif inkişaf yolları nəticəsində müstəqil cərəyana ayrılmışdır. Digər cərəyanlardan fərqi:
1. Ehkam fərqləri: Kilsə qüsursuzluğunun qəbulu (amma papanın yox), Qiyamət gününün inkarı, şəriətin toxunulmazlığı və dəyişməzliyinə inam.
2. Ayin fərqləri: İkonalara sitayiş, ağ ruhanilər üçün nikahın zəruriliyi və s. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 240).
94. V. Dorant, «Mədəniyyətlər tarixi», c. 3, səh. 770.
95. Səlim ibn Cərcis, «Əzəmətli xəzinə», səh. 109.

Keşiş Ətaullah Vəhib, «Həzrət İsanın (ə) mahiyyəti» kitabının, 18-ci səhifəsində belə söyləyir: «Üç üqnum əqidəsi, heç bir ağıl və məntiq çərçivəsilə uzlaşmır. İnsan ağlı onu rədd edir. Biz isə bu etiqadı təsdiqləməli və qəbul etməliyik.»[96]
Rəsmi kilsə etiqad naməsində yazılıb: «Üç üqnum əqidəsi, ilahi sirridir. Onu Tanrıdan bir başa vəhy olmadan başa düşmək olmaz. İnsan ağlı onu anlamaqda acizdir.»[97]

Hətta Tomas Akvinas da, bu əqidənin elmi və fəlsəfi dəlillərlə sübuta yetirilə bilməsinin qeyri-mümkün olduğunu söyləyərək, fəqət iman əhlinin ona etiqadlı olmasını zəruri sayır»[98]

## B. İSLAMDA ALLAH

Qurani-kərim elə bir əsrdə nazil olmuşdur ki, insanlar Allahın kənarında yüzlərlə bütə sitayiş edərək, onların razılıqlarını əldə etmək üçün qurbanlar kəsirdilər. Düşüncə və şüur cəhətdən zəif olan qədim ərəblər Allahı cism sanır, onun üçün oğul, qız və şərik təsəvvür edirdilər. O insanlar hətta cin və şeytanları dünyanın idarə olunmasında Allaha yardımçı sanırdılar.

Belə bir acınacaqlı vəziyyətdə Uca Tanrı bəşəriyyətə sonsuz mərhəmət edərək, ilahi mərifətlərin ən kamili olan Qurani-kərimi Həzrət Məhəmmədin (s) ülvi qəlbinə nazil etdi. Çox yüksək və dərin mənalara malik Qurani-kərimin 1/3 hissəsi Allah-təalanın vəsfinə aid olunur. Quranda ilk növbədə, Allaha qarşı irəli sürülən iddialar, Ona nisbət verilən yanlış xüsusiyyətlər və sifətlərlə mübarizə aparılmışdır. Cinlərin Allaha şərik qoşulmasına etiraz edilərək, onların yaradılmış olmasına, Allahın onları xəlq etməsinə diqqət çəkilmişdir. Allah üçün oğul və qız təsvir edənlər sərt sözlərlə tənqid edilmişdir. Yeri və göyləri yaradanın övlada, zövcəyə ehtiyac duymamasına təkid edilmişdir.

Allahın şəriksiz rəbb olmasına, Ondan başqa heç bir tanrının olmaması dəfələrlə bəyan edilmişdir. Təkcə hər bir şeyi Yaradana ibadət edilməsi tələb olunmuşdur. Gözlərin Onu görmək iqtidarında olmaması, lakin Onun hər bir şeydən agah olması buyurulmuşdur. *(Ənam, 100-102).*

Belə qiymətli İlahi kəlamlarının, ayələrin çox olmasına görə, Tanrını vəsf və mədh edən Quran ayələrinin hamısını bu kitabda gətirə bilmərik. Amma o mübarək o ayələrdən bir neçəsini nəzərinizə çatdırmaq imkanından istifadə etmək istərdik:

1. «O Allah elə bir məbuddur ki, ondan başqa heç bir məbud yoxdur. Hər şeyi sahibidir. Müqəddəsdir, sağlamlıq, əmin-amanlıq bəxş edəndir. Qoruyan və nəzarətçidir. İzzət və qüdrətə malikdir. Məğlubedilməzdir. Böyük və əzəmətlidir bütün eyb və nöqsanlardan pakdır. O həmin Allahdır ki, yaradan və surət bəxş edəndir. Gözəl adlar və yalnız ona məxsusdur.» *(Həşr, 23-24)*
2. «Allah etdiyiniz bütün gizlin və aşkar əməllərdən xəbərdardır» *(Bəqərə, 77)* «Həqiqətən Allah eşidən və biləndir» *(Bəqərə, 227)*

Gördüyünüz kimi, Qurani-kərimin ayələrində Allah üçün mədh (tərif) zikr etməklə tanrı barəsində bir necə həqiqəti açıqlayır. O cümlədən; Quran Allahın hər şeyi yaratdığı üçün öz yaratdıqlarına ehtiyacı olmamasını, həmçinin şərik, zövcə, oğul, qız və bu kimi məfhumların Allahdan uzaq olmasını bəyan edir. Quran, bütpərəstləri Tanrının kənarında başqa məbudları ibadət etməkdən çəkindirərək, onları yalnız vahid xaliqə və rəbbə sitayiş etməyə əmr edir.

Ümumiyyətlə, Qurani-kərim tövhid məsələsinin əhəmiyyətinə görə qırxdan çox ayədə tövhidə və təkallahlığa əmr etmişdir. Lətif olduğu üçün gözlərin onu görməyə qadir olmadığını bildirən ayə onun hər bir şeyi, hətta gözlərdə olan xəyanəti, məhəbbəti və nifrəti gördüyünü elan edir. O ki, qaldı Allah-təalanın hər şeyə agah olduğuna, demək olar ki, Qurani-kərim də-

96. Ə. Şibli, «Dinlərin əlaqəsi», səh. 124
97. SSS, R. 56
98. V. Dorant, «Mədəniyyətlər tarixi», c. 4, səh. 1302

fələrlə tanrının hər şeydən xəbərdar olmasına işarə etmişdir. Və bu işarə bəzən Tanrının kainata olan sonsuz elmi şəkildə və bəzən də onun hər şeyi görüb-eşitdiyini bildirən ayələrdən düşünülür.

Quranın məntiqinə əsasən Allah bir olduğu üçün gərək məbud da bir ola. Yəni ibadət yalnız hər şeyin sahibi və maliki olan müqəddəs Tanrının qarşısında olmalıdır. Quran Allah-təalanı həqiqi nemət sahibi kimi tanıtdırır. Quran baxımından sağlamlıq və əmin-amanlıq bəxş edən, kainatı qoruyan və onun nizam-intizamına nəzarət edən Allah sözsüz ki, tükənməz izzətə və qüdrətə malik olmalıdır. Belə bir böyük və əzəmətli Tanrı heç bir qüdrətin qarşısında məğlub olmaz çünki o hər bir nöqsandan pakdır. Quran, nəhayət, hər bir gözəl adı Allaha layiq və ona məxsus bilir.

İslam dinində Allah-Taalanın bütün varlıqları yaratdığına və başqa sözlə desək, Onun varlıq dünyasının yaradanı olduğuna inanılır. Onun Əzəməti, Elmi və Qüdrətinin əsərləri dünyanın bütün varlıqlarında aşkar olmuşdur. Uca Yaradanın əzəməti, elmi və qüdrəti bəndələrinin vücudunda (həmçinin fitrətində), canlılar və bitkilər aləmində, səmanın bitib - tükənməyən ulduzlarında və daha yüksək aləmlərdə, bir sözlə hər yerdə aşkardır.

Belə ki, gördüyümüz bu böyük dünyanın varlıqlarının sirləri barəsində daha çox fikirləşsək, Onun Pak Zatının əzəmətinə, elm və qüdrətinin sonsuz olduğuna bir o qədər agah olarıq. Müxtəlif kəşf və ixtiralarla və elmin inkişafı ilə, həqiqətdə Allahın elm və hikmətinin yeni-yeni qapıları bizim üzümüzə açılır. Bəşərin Allah barəsində düşüncəsi və etiqadı artaraq yeni-yeni elmi kəşflər edir. Belə ki, təbiətin bir çox sirlərinə agah olduqda, istər-istəməz onun yaradanı barəsində fikirləşir, Onun pak zatının əzəməti və elminin qüdrətinin, geniş olduğunu heyranlıqla etiraf edirik.

Bu təfəkkür bizim Allaha olan eşqimizi günbəgün artırır, bununla da, Ona daha çox yaxınlaşdıraraq, tükənməz Cəlal və Cəmal sifətlərinin nuruna boyayır. Qurani-Kərim buyurur: «Yer üzərində inam, yəqin axtaran kəslər üçün nişanələr -ibrətlər vardır. Və sizin öz vücudunuzda da, nişanələr mövcuddur. (məgər) Görmürsünüzmü?» (Zariat, 20-21)
Ali-İmran surəsinin 90-91-ci ayələrində buyurulur: "Şübhəsiz, yerin və göylərin yaradılışında və gecə-gündüzün gəlişində ağıl sahibleri üçün nişanələr vardır. Onlar ayaq üstə, oturan halda, böyürləri üstə yatarkən Allahı zikr edib (hər vaxt Onun barəsində fikirləşərlər), göylərin və yerin yaranışını təfəkkür edər və deyərlər: Ey Rəbbimiz, bu dünyanı boş-boşuna yaratmamısan."

## Allahın Cəlal və Camal sifətləri (xüsusiyyətləri)

İslam dininə görə, Allahın Pak Zatı hər bir eyib və nöqsandan uzaqdır və O, bütün kamal sifətlərinin sahibidir. Həqiqətdə O, mütləq kamilliyin özü və kainatınyaradanıdır. Başqa bir sözlə desək, dünyada mövcud olan hər bir gözəllik və kamal bulağı Ondan çeşmələnmişdir.

## Allahın Pak Zatının nəhayətsiz, hüdudsuz olması

İslam dini Allah-Taalanın sonsuz və nəhayətsiz bir varlıq olduğuna təkid edir. İstər elm, istər qüdrət, istərsə də, əbədi həyat, əzəliyyət cəhətindən sonsuz və nəhayətsizdir.

Elə bu səbəbdən də, zaman və məkan məhdudəsinə sığmazdır. Çünki zaman və məkan Onunla müqayisə olunmaz dərəcədə məhdud, naqis və təsəvvür olunma qabiliyyətinə malik deyildir.

Allah-Taala zaman və məkanı yaradan, ona hökm edəndir. Bununla belə O, eyni halda (zamana və məkana ehtiyacı olmadan) hər bir yerdə və zamanda mövcuddur. Çünki zaman və məkanı əhatə edərək, bunlardan daha uca və yüksəkdir. Qurani-Kərim buyurur: «O, həm yerdə Allahdır, həm də, göydə Allahdır (məbuddur). Hikmətli və bilicidir.» (Zuxruf, 84) Yaxud

buyurulur: «Hər bir yerdə olsanız, O, daim sizinlədir. Allah əncam verdiyiniz hər bir işi görür.» (Hədid, 4)

Dinimizə görə, Uca Tanrı bizə bizim özümüzdən də, yaxındır. O, daim bizimlədir. Bizim fitrətimizdədir. O, məkana, zamana ehtiyacı olmadığı halda, hər bir yerdədir. (Ağıllar bu həqiqəti olduğu kimi dərk etməkdən acizdir.) Necə ki, Qurani-Kərim buyurur: «Biz (Allah), insana onun şah damarından da, yaxınıq.» (Qaf, 16)

Beləliklə, əgər biz Qurani-Kərimdə: «Odur şərəfli ərşin sahibi.» və ya; «Mehriban Allah ərşin üzərində qərar tutubdur.» (Buruc, 15, Taha, 5) kimi ayələrə rast gəliriksə də, bu o demək deyildir ki, Allahın ərş adında xüsusi bir məkanı (taxtı) vardır və orada qalır. Əksinə «ərş»-dən məqsəd Allahın sonsuz və naməhdud hakimiyyətidir.

Yəni Allahın nəhayətsiz qüdrət və hakimiyyəti bütün maddi cahanı və mənəvi aləmləri əhatə etmişdir. Əgər biz, Allah-Taalanın xüsusi bir məkanda yerləşdiyini söyləsək, həqiqətdə, Onu məhdud bir varlıq saymış olarıq. Allaha məxluqatın xüsusiyyətlərini nisbət verməklə, Uca Tanrını kiçiltmiş və məhdud etmiş olarıq. Bir halda ki, Qurani-Kərim buyurur: «Hec nə Ona tay ola bilməz.» (Şura, 11) yaxud, İsra surəsində 4-cü ayə; «Heç bir kəs Ona tay ola bilməz.»

## Allah cisim olmaması və gözlə görülməzliyi

Dinimizə görə, Allah-Taala heç bir vaxt gözlə görülməz. Çünki gözlə görülmək cismin xüsusiyyətlərindəndir. Gözlə görülən hər bir varlıq, məkan və zaman hüdudlarında qərarlaşmalı, müəyyən bir rəngə və surətə malik olmalıdır. Bütün bu xüsusiyyətlər Allahın yaratdığı cisimlərə, varlıqlara məxsus olan xüsusiyyətlərdir.

Allah-Taala isə öz yaratdığı məxluqların maddi xüsusiyyətlərindən uzaq və pakdır. (Çünki məxluqatın malik olduğu bu sifətlər, birbaşa onların naqis və öz məkan, zaman, forma və rənglərinə ehtiyaclı olduğunu yetirir. Allah-Taala isə hər növ miqyas və ölçüdən uzaqdır, ehtiyacsızdır.)

Deməli, Allah-Taalanı görməyə, müşahidə etməyə olan etiqad, bir növ şirkə düçar olmaq deməkdir. Qurani-Kərim buyurur: «Gözlər Onu görməz. Lakin O, bütün gözləri görür. O, bağışlayan və mehribandır.» (Ənam, 103)

Məhz elə buna görə də, Bəni-İsrail qövminin bəhanə axtaran başbilənləri Musa (ə)-a Allahı görmək istədiklərini bildirdilər. Və ondan Allahı onlara göstərməsini tələb etdilər; «Əgər Allahı aşkar olaraq görməsək, sənə iman gətirməyəcəyik!» (Bəqərə, 55) Musa (ə) onları Tur dağına apardı və onların tələblərini Allaha söylədi.

Allah-Taala isə onlara belə cavab verdi: «Əsla (heç vaxt) məni görə bilməyəcəksən! O dağa bax. Əgər o, yerində salim qalarsa, sən də, məni görəcəksən. Sonra Rəbbi dağa təcəlli edib, onu yerlə-yeksan etdi. Musa bayılıb yerə düşdü. O, özünə gələrkən dedi: «Ey Tanrım, Sən gözlə görülməkdən uzaq və paksan! Sənə tərəf qayıtdım (tövbə etdim). Mən iman gətirənlərin ilkiyəm.» (Əraf, 143).

Bütün bunlar Allahın gözlə görülməsinin qeyri-mümkünlüyünə bir dəlildir. Deməli, əgər bəzi ayələrdə və islami rəvayətlərdə «Allahı görməkdən» söhbət olunursa da, bundan məqsəd Allah-Taalanı batini gözlə görməkdir. Onu qəlbən «görüb» dərk etməkdir.[99]

Belə ki, bir nəfər Həzrət Əli (ə)-dan soruşur: Ey möminlərin ağası, söylə görüm, heç öz Allahını görmüsənmi? İmam Əli (ə) belə cavab verir: Görmədiyim varlığamı ibadət edim?

---

99. Çünki Quranın bəzi ayələri digərlərini şərh edərək aydınlaşdırır. Quranı dərk etmək üçün təkcə bir ayəni deyil, onu bütünlüklə nəzərdə alaraq nəticəyə gəlmək lazımdır.

(Yəni mən görmədiyim varlığa ibadət etmərəm.) Sonra isə buyurur: Əsla Onu gözlər görməz, müşahidə edə bilməz. Amma qəlblər Onu iman gücü ilə dərk edər.[100]

Peyğəmbərin (s) Əhli-beytinin (ə) bizə təlim verdiyi kəlamlara əsasən, məxluqatın xüsusiyyətlərini (məkan, zaman, cismilik, gözlə görülmək, forma, quruluş və s.) Allaha nisbət vermək, bir daha Onu düzgün tanımadığımızdan xəbər verir. O, bütün varlıqlardan və onlara nisbət verilən sifətlərdən uca və pakdır. Heç bir varlıq Ona bənzəməyir. O, bənzərsiz bir xaliqdir.

## Tövhid, bütün İslam təlimlərinin ruhu və əsası kimi

İslam dininin təlimlərinə görə, ilahi mərifəti barəsində olan məsələlərin ən əhəmiyyətlisi və əsası, tövhidi (Allahın hər bir cəhətdən yeganəliyini) olduğu kimi tanımaq və anlamaqdır. Həqiqətdə, Tövhid, yalnız dinin əsaslarının biri kimi deyil, əksinə bütöv islam əqidələrinin bünövrəsi, kökü və dayaq nöqtəsi deməkdir. İslam dininin əsasları və fərləri[101] Tövhidə bağlı olaraq, onunla formalaşır.

Dinimizin hər bir bölməsi bir növ Tövhidlə, Allahın yeganəliyilə sıx bağlıdır. Allahın pak zatının vəhdəti və misilsiz olması, Allahın sifətlərinin və fellərinin bir olması Tövhidə əsaslanır. İlahi peyğəmbərlərinin bir Allaha doğru çağırışları ilahi dininin və ayinlərinin bir olması, müsəlmanların qibləsinin, həmçinin Müqəddəs kitabımızın bir olması, ilahi qanunvericiliyinin və hökmlərin bəşər övladları üçün vəhdəti, Qiyamət gününə olan etiqadın birliyi də, Tövhiddən xəbər verir.

Elə buna görə də, Qurani-Kərim ilahi Tövhiddən uzaq düşmək və şirkə doğru meyl etməyi bağışlanılmayan günah sayaraq buyurur: «Allah-Taala heç vaxt ona şərik qoşmağı bağışlamaz. İstədiyi kimsənin (bundan savayı) başqa günahlarını (əgər layiqli bilsə) bağışlayar. Allaha şərik qoşan şəxs yalan uydurmuş və böyük günah etmişdir.» (Nisa, 48)

Başqa bir ayədə buyurulur: «Sənə və səndən əvvəlki bütün peyğəmbərlərə vəhy olunmuşdur ki, əgər müşrik olsanız, əməllərinizin hamısı hədər olacaqdır. Və əlbəttə, ziyankarlardan olacaqsınız.» (Zumər, 65)

## Tövhid və onun mərtəbələri

Tövhid bir neçə qismə ayrılır ki, sizə təqdim etdiyimiz bu dörd qisim, onların ən əhəmiyyətlisidir.

### 1. Tövhide - zati:

Allahın Pak Zatı tək və yeganədir. Heç bir varlıq Ona oxşamaz. O, şəriksiz və misilsiz bir Allahdır.[102]

### 2. Tövhide - sifati (sifətlərdə Tövhid):

Tövhide-sifati budur ki, Allah-Taala bütün kamal sifətlərinə malikdir. Allahın elm, qüdrət, əbədiyyət, və s. bu kimi sifətləri (xüsusiyyətləri) hamısı Onun Pak Zatında cəmlənmişdir. Və bu xüsusiyyətlər Onun vahid, bölünməz və bir olan zatının eynidir. Məxluqatın sifətləri isə bir-birindən ayrı olmaqla bərabər, onların zatından da, ayrıdır. Allahın sifətləri isə belə deyildir. Əlbəttə, «Allahın sifətləri ilə Onun zatının eyni olması bəhsini» daha yaxşı anlamaq (üçün bir sıra elmi və fəlsəfi zərifliklərə diqqət etmək lazımdır) xüsusi incəliklə düşünmək və diqqət tələb edir.

---

100. Nəhcul-bəlağə, 179-cu xütbə
101. Əməli əsasları.
102. Üsuli- kafi, c. 1, s. 160. (Babul-cəbr vəl-qədər)

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی

### 3. Tövhide - əfali (fellərdə Tövhid):

Dünyada baş verən hər iş, hərəkət və hər bir varlığın təsiredici qüvvəsi Allah-Taalanın iradəsinə bağlıdır. Və Onun iradəsindən çeşmələnir. Qurani-Kərim buyurur: «Allah-Taala hər bir şeyin yaradanıdır və bütün varlıqlara nəzarət edən Odur!» (Zumər, 62) Yaxud başqa bir ayədə buyurulur: «Göylərin və yerin açarları Ona məxsusdur. (Bütün işlər Onun qüdrətinə bağlıdır.)» (Şura, 12)

Bəli, Allahdan qeyri heç bir təsir qoyan qüvvə yoxdur! Lakin bu bizim işlərimizdə, əncam verdiyimiz əməllərimizdə məcbur olmağımız mənasında deyildir. Hər bir insan öz əməllərini əncam verməkdə və qərar qəbul etməkdə azaddır. Necə ki, Qurani-Kərim buyurur: «Biz insana doğru yolu nişan verdik. İstər şükür etsin, istərsə də küfr etsin!» (İnsan, 3) Yaxud; «Və gerçəkdə insan üçün öz səyindən başqa mükafat yoxdur.» (Nəcm, 39)

Qeyd olunan ayələr aşkarcasına bəyan edir ki, insan azad iradəyə malikdir. Lakin bu azad iradəni və qüdrəti ona öz Rəbbi vermişdir. İnsanın bütün işləri Allahın ona bəxş etdiyi iradə və bacarıq vasitəsi ilə baş tutur. Deməli, bizim əməllərimiz Allaha istinad olunaraq bir növ, həqiqətdə ona bağlıdır. Və bu bağlılıq bizim əməllərimizə görə daşıdığımız məsuliyyəti heç də azaltmır.

Əziz oxucu, Allah iradə etmişdir ki, biz öz əməllərimizi azad ixtiyara malik olaraq əncam verək və bu vasitə ilə, Allah-Taala, insanları imtahana çəkərək onları «mənəvi təkamül» yolunda ucaltmaq istəmişdir. Çünki yalnız azad iradəyə malik olan insan, öz ixtiyarı ilə Tanrıya itaət etdikdə, İlahi kamilliyə ucala bilər. Əgər Allah insanı heç bir ixtiyara və azad iradəyə sahib etməsə və onu öz əməllərində məcbur edərsə, insanın əməlləri heç bir dəyərə malik olmayacaqdır.

Azad iradə sahibi olmayan, yalnız vasitə-alət rolunu oynayan insanın icbarən gördüyü işlər onun yaxşı və pis olmasına heç bir şəkildə dəlalət edə bilməz.

Əslində əgər biz insanlar, öz əməllərimizi əncam verməkdə məcbur olsaydıq, peyğəmbərlərin gəlişi, müqəddəs kitabların göndərilməsi və həmçinin dini hökmlər, təlim-tərbiyə və s. puç və mənasız bir iş olardı. Cənnət-Cəhənnəm, cəza və mükafat mənasız bir iş sayılardı. Bu bizim Əhli-Beyt (ə)-dan öyrəndiyimiz bir əqidədir; «İnsanın əməllərində mütləq şəkildə icbar yoxdur. Həmçinin, insanın öz əncam verdiyi işlərdə tam azad olduğu (Allaha heç bir ehtiyacı olmamağı) səhv bir əqidədir. Həqiqətən bu iki əqidənin arasında mötədillik; «Nə icbar, nə sırf azadlıq doğru deyildir. İnsan Allaha ehtiyaclı olaraq öz işlərində azad iradəyə malikdir.»

### 4. Tövhide - ibadi:

İbadətdə Tövhid, yəni ibadət fəqət Allaha məxsusdur. Ondan qeyri bir varlıq ibadət olunmağa layiq deyildir. Yalnız Allaha ibadət edərək, yalnız Onu ibadətə layiq saymaq, Tövhide- ibadi adlanır. Tövhidin bu qismi onun digər bölümlərindən ən əhəmiyyətlisidir. Belə ki, ilahi peyğəmbərlər hamısı daha çox ibadətdə olan Tövhidə təkid etmişlər. Və insanları yalnız və yalnız bir olan Allaha ibadət etməyə səsləmişlər. Qurani-Kərim buyurur: «Onlara, yalnız Allaha ibadət etmək əmr olundu. Və öz dinlərini fəqət Allaha ibadət etməklə xilas etmək (şirkdən Tövhidə qayıtmaq) tapşırıldı. Və budur doğru-düzgün din.» (Bəyyinə, 5)

İnsan övladı ürfan və əxlaqi kamilliyin mərhələlərini keçərək, mənəvi cəhətdən daha uca məqamlara yüksəlmək istədikdə, «Tövhid məsələsi»daha çox mürəkkəbləşir. Elə bir dərəcədə ki, insan Allaha könül bağlayaraq hər bir məkanda onun razılığını düşünür. Onun razılığından qeyri heç bir şeyin barəsində fikirləşmir. Allahdan başqa bir varlıq onun diqqətini cəlb etmir. Başqa bir ibarətlə desək; «Allahdan başqa sənin diqqətini cəlb edən, sənin bütündür.» dərəcəsinə yetişir.

Əziz oxucu, Tövhidin qisimləri bu dörd bölümlə məhdudlaşmır: Bunlardan başqa, digər bölümləri də, qeyd etmək olar: «Malikiyyətdə Tövhid,» yəni; hər bir şeyin həqiqi maliki Allahdır (Bəqərə,

284). Hakimiyyətdə Tövhid: həqiqi hakim və hökm edən yalnız Allahdır. Hökm yalnız ona məxsusdur. (Maidə, 44)

## Tövhid və möcüzələr

İlahi peyğəmbərlərin əncam verdikləri bütün xariqüladə işlər və möcüzələr (ölü diriltmək, anadangəlmə koru sağaltmaq və s.) yalnız Allahın icazəsi, iznilə baş tutur. Bu möcüzələrin Tövhidi - əfali ilə heç bir ziddiyyəti yoxdur. Necə ki, Qurani-Kərim İsa (ə)-a buyurur: «Anadangəlmə kora və (əlacı mümkün olmayan) alaca xəstəliyinə tutulmuşa mənim iznimlə şəfa verirdin. Və ölüləri mənim əmrimlə dirildirdin.» (Maidə, 110)

Süleyman (ə)-ın vəzirlərindən biri barəsində Qurani-Kərimdə belə buyurulur: "İlahi kitabından bir az elmi bəhrəsi olan şəxs dedi: Sən gözünü qırpmamışdan öncə mən onu sənin yanına gətirərəm. Süleyman (ə) taxtı öz yanında görcək dedi: Bu, Tanrımın mərhəmətindəndir." (Nəml, 40)

Beləliklə, Quran aşkar şəkildə əlacı mümkün olmayan xəstələrə şəfa vermək, ölüləri diriltmək və s. bu kimi möcüzələri, yalnız Allahın izninə bağlayır. Bu, Tövhidlə ziddiyyət daşımayaraq, əslində onun eynidir.

## Allahın pak zatının həqiqəti hər bir kəsə məxfidir

Allahın vücudunun, varlığının əsərləri bütün dünyanı əhatə etmişdir. Əvvəldə söylədiyimiz kimi, hər bir yaranmışın vücudu, bizə ulu, qadir, və əzəmətli Yaradanın varlığından söz açır. Lakin bununla belə Allahın zatının həqiqəti (Onun necə olduğu) heç bir kəsə məlum deyildir. İnsan Allahın pak zatını dərk edərək, Onu olduğu kimi anlaya, təsəvvür edə bilməz. Çünki O, hər bir cəhətdən naməhdud, intəhasız və hüdudsuzdur. Amma biz insanlar məhdud, sonlu və hüdud çərçivəsində məhdudlaşan məxluqlarıq. Bizim məhdud və müəyyən bir dairədə (zaman və məkan qeydinə bağlı olan) elmimiz, hər bir cəhətdən naməhdud sonsuz olan Uca Yaradanı dərk etmək qüvvəsinə qadir deyildir. (Məhdud bir varlığın naməhdud, sonsuz olan Uca Yaradanı hər hansı bir cəhətdən əhatə etməsi qeyri-mümkündür.)

Qurani-Kərim buyurur: «Agah olun! Onun hər bir şeyə əhatəsi vardır.» (Fussilət, 54) Yaxud: «Allah onların hamısını (hər tərəfdən) əhatə edibdir.» (Buruc, 20)

Məhəmməd Peyğəmbərin (s) tanınmış bir hədisində oxuyuruq: «İlahi, biz Səni pak zatına layiq şəkildə ibadət edə bilmədik. Səni olduğun kimi (həqiqətini) tanıya bilmədik.» (Biharul-ənvar 68 c, səh-23)

Lakin bütün bu söylədiklərimiz, o mənaya deyildir ki, biz Allahı heç bir formada taniya bilmərik.

(Həqiqətdə insan öz Allahının cəlal və camal sifətlərindən agah olmaq imkanına malikdir. Hətta, təbiətin özü də, bizə Allahı tanımada gözəl yardımçıdır. Biz təbiətə baxdıqda Allahın qüdrətini, əzəmətini, ədalətini, gözəlliyini və s. dərk edirik.)

Əgər biz Allahı heç bir şəkildə tanıya bilməsək, onun xüsusiyyətlərindən, sifətlərindən xəbərdar olmasaq, ilahi mərifəti yolunda yalnız bir neçə mənasız sözlərə kifayət etməli olacağıq. Bu isə ilahi mərifətinin tətil olması deməkdir. Və qəbul olunası mümkün olmayan bir əqidədir. Çünki Qurani-Kərim və digər səmavi kitablar məhz ilahi mərifətini bəyan etmək üçün (Allahı tanıtmaq məqsədilə) nazil olmuşdur.

Bu barədə çoxlu oxşar misallar gətirmək olar. Məsələn; Biz «ruhun» həqiqətini olduğu kimi anlaya bilmərik. Lakin eyni halda onun xüsusiyyətlərindən xəbərdarıq. Və onun əsərlərini (təsirlərini) müşahidə edərək çox yaxşı anlayırıq İmam Baqir (ə) özünün bir hədisində buyurur:

«Allah barəsində (Onun həqiqəti barəsində) öz fikir və xəyallarınızla ən dəqiq mənada və şəkildə etdiyiniz təsəvvürlər, yalnız sizin ağlınızın yaratdıqlarıdır (Yəni həqiqət deyildir). Və sizin özünüz kimi na-

qis və məhduddur. (Allah-Taalanın həqiqəti bu xəyallardan daha uca və üstündür («Biharul-ənvar» c- 66, səh 293)

Həzrət Əli (ə)-dan nəql edilən başqa bir hədisdə ilahi mərifəti ən gözəl və aydın təbirlərlə bəyan olunmuşdur: «Allah-Taala ağılları öz sifətlərinin (və zatının) hüdudlarından (həqiqətlərindən) agah etməmişdir. Və amma eyni halda onları lazım olan miqdarda anlayışdan və mərifətdən məhrum da, etməmişdir. (Ğurərul - hikəm)

## 10 – Tətil[103] və təşbihin[104] yanlış olması

İlahi mərifətində ağlın qüvvədən salınması olmadığı kimi, «təşbih» də, düzgün deyildir. Allahı, bəndələrinə oxşatmaq, bəndənin - məxluqatın sifətlərini Ona nisbət verməк doğru deyildir. Eləcə də, Allahı tanıma yolunda insan ağlının tamamilə aciz və tətil olması da, qeyri-səhihdir. Bunların biri təfrit, digəri isə ifrata varmaq deməkdir.

## ARAŞDIRMA

Birinci dərsdə söylənildiyi kimi, Bibliyaya diqqət yetirdikdə, orada bəzi cümlələrdə Allahı vahid, əzəli, əbədi, qadir, sifət və zatda bənzərsiz, gözəgörünməz, ədalətli, alim, küll-ixtiyar sahibi kimi təsvir etdiyinin şahidi olarıq. Diqqət etmək lazımdır ki, yəhudilərin müqəddəs saydıqları başqa kitablarda da, Allah-taalanın daha uca və ali xüsusiyyətlərlə vəsf edilməsi inkar edilməzdir. Zəbur Allahın insanların hər bir işindən xəbərdar olması, onların oturuşu-duruşlarını bildiyini, fikirlərimi uzaqdan duyurduğunu söyləyir. Bəndələrin yetməyinə, yatmağıma nəzarət etdiyini deyir. Belə ki, Allah onların hansı yollardan keçdiyimi bilir.

Sözlərini dilə gətirməmişdən əvvəl, hamısına tamamilə agahdır. Allah hər tərəfdən bəndələrini əhatə etmişdir. Onun elmi əsrarəngizdir, çox yüksəkdir. Bəndə harada olursa olsun, Allahın hüzurundadır. Onun elm və qüdrəti dairəsindədir. Belə ki Zəburda oxuyuruq: "İlahi, nurun, zülmətin Sənin üçün nə fərqi var? Sən mənim daxili üzvlərimi yaratmısan, Mənə ana bətnində quruluş vermisən. Sən məni ecazkar, əsrarəngiz yolla yaratmısan, Ona görə şükür edirəm... Mən gizli bir yerdə yaranarkən, Dünyanın dərin yerində yaranarkən Bədənim Səndən gizli qalmadı. Dünyaya gəlməzdən əvvəl Sənin gözlərin məni gördü. Ömrüm başlamazdan əvvəl Mənə təyin etdiyin hər bir günü kitabına yazmısan." [105]

Lakin həmin müqəddəs kitablarda Allah-təala insandan da aciz və qüsurli formada təsvir edilir. Bu da, həmin müqəddəs kitabların zaman keçdikcə qismən təhrifə uğramasından xəbər verir. Bibliyada «Allah»ın yalan danışmağı, paxıllıq etməyi, naqis, elmsiz və qorxaq bir varlıq olması, dolayısı yolla da olsa təlqin olunur. Bunun üçün təkcə Adəm və Həvvanın qadağan olunmuş meyvəni yedikləri zaman baş verən əhvalatlara diqqət etməyimiz kifayətdir. Həmin hadisədən aşağıdakı nəticələri almaq olar:

1. 1-Allah yalan danışır. Çünki Adəm (ə) meyvəni yeyəndən sonra ölmədi. Allah ona öləcəyini demişdi.[106]
2. 2-Allah paxıllıq edir. Çünki istəmir Adəm (ə) də elmli, xeyri-şəri başa düşən olsun.[107]
3. 3-Allah qorxur. O qorxur ki, Adəm (ə) «əbədi yaşayışa» sahib ola bilər və bunu Özü üçün təhlükə sayır.[108]

---

103. Ağlın qüvvədən salınması
104. Allahı, Onun bəndəsinə oxşatmaq
105. Məzmur, 139:1-20
106. Varlıq, 2-ci fəs. 17-ci cüm
107. Varlıq, 3-cü fəs. 22-ci cüm
108. Varlıq, 2-ci fəs. 22-ci cüm

4. 4-Allah adi insanlar kimi, az elmli və qeyb-aləmindən xəbərsizdir. Belə ki, O bağı gəzərək Adəmi (ə) axtarır, onlardan harada olduqlarını soruşur və yalnız Adəmin (ə) «utandıq» cavabından sonra onun meyvəni yediyini anlayır.[109]
5. 5-Allah sadə insanlar kimi cisim və məhdudiyyətli maddi xüsusiyyətlərə malikdir. O, sübh çağı bağda xumarlı halda gəzirmiş...

Üzləşdiyimiz belə ziddiyyətlər bir vaxtlar ilahi vəhy olmuş «Müqəddəs kitabın» illər keçdikcə təhrif olunaraq, əsaslı dəyişikliklərə uğradığından xəbər verir. Allahın öz yaratdığı bəndəsinə məğlub olması, qorxması, yalan danışması, simiclik etməsi, heç bir məntiq və ağıl çərçivəsinə sığmır. Bütün yaratdıqlarına kamillik, qüdrət və elm bəxş etmiş Uca Tanrının, özünün onlardan aciz olması necə də gülüncdür. Əgər belədirsə, Böyük Xaliq onlara söylənilən kamilliyi hansı «elm və qüdrət» sayəsində bağışlamışdı?

Həmçinin, mütləq kamilliyin, qeyri-məhdud elmin, qüdrətin sahibi əbədi və əzəli Allahı maddi xüsusiyyətlər dairəsində məhdudlaşdırmaq, həqiqətdə, Onu kiçiltmək və alçaltmaq deməkdir. Allah cism deyil, maddi varlıq deyil. O, təsvirəgəlməz bir vücuddur. O, hüdudsuz, nəhayətsiz və sonsuz kamilliyin özüdür. Deməli, Alllahı maddi varlıq kimi təsəvvür etmək böyük səhv olardı. Bibliyadan fərqli olaraq Qurani-kərimin Allah-təala barəsində söylədiyi fikirlərə əsaslanaraq tam qətiyyətlə demək olar ki, bu din monoteizmin ən yüksək zirvəsində durur.

Xristianlığın təməl kitabı olan, əslində tarixi istinadlar, fəlsəfi düşüncələr və Qurani-kərim tərəfindən təhrif edildiyi bildirilən incillərdə belə sağlam və anlaşılan təslis inancına rast gəlmək olmur.

Qurani-kərim isə, Allahı uca sifətlər ilə, heç bir məxluqa bənzəməyən misilsiz bir məbud kimi tanıtdırmışdır. Deməli, bütün səmavi kitablar ilə zidd və heç bir əsası olmayan təslis inancı xristianlığın təhrif olunması, küfr və bütpərəstlik ilə aludələşməsindən xəbər verir.

Amerikalı Draber «Elm və din» kitabında Roma hökumətinin ikiüzlü hakimiyyətlərinin vasitəsilə təslisin məsihiyyətə daxil olması haqqında belə yazır: «Konstantin məsihi olsa da, əxlaqi və mənəvi rəzilliklərin ucbatından xristianlıq adı altında bütpərəstlik dini meydana çıxartdı.»

Məsihiyyət dini əslində acınacaqlı bir dindir. Təmiz və şərif formada ilahi tərəfindən nazil olmuş məsihiyyətdən indi heç bir əsər-əlamət qalmamışdır. Həzrət Məryəm (ə) və Həzrəti İsanı (ə) heç bir vaxt «Mən Allaham», «mən Allahın oğluyam» (arvadıyam) və yaxud «Ruhul-Qüds Allahdır» deməyib, əksinə, insanları həmişə «vahid Allaha» doğru çağırmalarının qarşısında insanların təslimə yönəlmələri, sizcə, acınacaqlı deyilmi?

V. M. Miller xristianlığın sanki, bütpərəstlərin əlilə oyuncağa çevrilməsini belə açıqlayır: «Dördüncü əsrdə bütpərəstlərin bir çoxu kilsəyə daxil oldu. Mənfəət və şöhrətə görə xristian olan bəziləri öz bütpərəst əqidələrini, Məryəmə (ə) və xristian şəhidlərinin qəbirlərinə ibadət etməklə təcəssüm etdirirdilər. Bütpərəst ideyalarını məsihiyyətdə əks etdirən bir çoxları hətta «xaç asmaqla» bütpərəstliyə aid olan şər ruhlardan amanda qalacaqlarını güman edirdilər.

Əslində xristianların etiqad bəslədiyi təslis inancına, hətta, təhrif olunmuş incillərdə də rast gəlmək olmur. Lakin onlar boyunlarına düşmüş üç üqnum əqidəsini sübuta yetirmək üçün müqəddəs kitabın iki cümləsinə istinad edirlər:

1- «İsa vəftiz[110] olunub o an sudan çıxdı. Və bu zaman göylər açıldı. Allahın ruhunun göyərçin kimi enib üzərinə gəldiyini gördü və bu an göylərdən bir səs gəldi: sevgili oğlum budur, ondan razıyam.» *(Matta, 3, 16-17)*

---

109. Varlıq, 3-cü fəs. 9-cu cüm

110. Özünü Allaha həsr etmək üçün bütün bədənin suya batmasına vəftiz deyilir.

2- «İndi siz gedib bütün millətləri şagird edin, onları ata, oğul və Ruhul-Qüds ismi (adı) ilə vəftiz edin. Sizə əmr etdiyim hər şeyi onlara öyrədin.» *(Matta, 28, 19*)

Doğurdan da, bu mətnlərdən üç tanrı və ya üç formaya düşmüş bir tanrı mənası çıxarmaq heç bir məntiqə uyğun deyil.

Birinci cümlədəki «sevgili oğlum» ibarəsi İsanın (ə) İlahi məqamına yox, əksinə, onun oğulluq sifətinə dəlalət edir. Kiminsə oğlu olmaq onun kimi olmaq demək deyil. Məsələn, həkimin oğlu olmaq həkim olmaq demək deyil. Həmçinin, müəllimin oğluna müəllim demirlər. Hər kəsi öz ləyaqətinə görə səsləyirlər.

Bundan əlavə, Allah-taalanın ata və İsanın (ə) onun həqiqi oğlu olmasıheç bir əqli-fəlsəfi və dini mətnlər ilə uyğun deyil. Fəlsəfi baxımdan Allah Məryəmi (ə) özünə qadın etmək nəticəsində İsanın (ə) dünyaya gəlməsi gülünc və məntiqdən çox-çox uzaqdır. Çünki Allah-taalanın maddi və cismani sifətlərdən uzaq və mənəvi kamilliyin tam zirvəsində olması fəlsəfə elminin əsasını təşkil edir. Bu elmdə, dünyanın bütün tanınmış filosofları tərəfindən sübuta yetirilmişdir ki, dünyanı yaradan cismi-maddi xüsusiyyətlərə malik deyildir. O hər şeydən ehtiyacsız, zaman-məkan məhdudiyyətlərindən xaric (zaman-məkan məfhumu təkcə cismani məxluqlara aid olunur. Allah üçün bunların heç birinin mənası yoxdur. Ona görə ki, Allahın Özü zaman-məkanı yaradır və onlara hökm edir) və hər yerə əhatəsi olan bölünməyən bir xaliqdir. Deməli, Allah-taaladan nəsə ayrılıb Məryəmin bətnində yerləşərək Həzrət İsanın dünyaya gəlmə xülyası əqli-fəlsəfi elmlə, əsasən, məhkum olunur.

Beləliklə, əgər «İncil» də gəlmiş «Sevgili oğlum» ibarəsinin həqiqətən də Allah-taala tərəfindən nazil olmasını fərz etsək, bu zaman «oğlum» sözünün məcazi mənada işlənilməsi aydın olur. Necə ki, yaşadığımız həyatda bu cür sözlərin müxtəlif insanlar tərəfindən dəfələrlə işlədilməsinin şahidi oluruq. Məsələn, müəllim öz şagirdini əzizləmək üçün ona «oğlum», «əziz balam» və s. bu kimi sözlərlə müraciət edir.

Dini mətnlərin başında duran və hər bir təhrifdən amanda qalan Qurani-kərim isə buyurur: «(Ey Məhəmməd, xalqa de:) Allah birdir. Allahın heç bir şeyə ehtiyacı yoxdur. Doğmayıb (heç kəsin atası ya anası deyil) və doğulmayıbdır (heç kimin övladı deyildir.) Onun bənzəri yoxdur.» *(«İxlas» surəsi)*

Allah-taala bu qısa surədə özünü xalqa, məxluqata, sözün əsl mənasında desək, Öz yaratdıqlarına belə tanıtdırır: - Allah birdir-vahiddir. Və heç bir şeyə - oğula, ataya və ya başqa bir Allaha ehtiyacı yoxdur. Kiminsə övladı olmaq və ya kiminsə atası, ya anası olmaq kimi sifətlər ona layiq sifətlər deyil. O yalnız tanrı və yaradandır. Onun misli-bərabəri yoxdur və heç kim onun kimi ola bilməz.

Bu surənin mənasından açıq-aydın şəkildə belə başa düşülür ki, İsa (ə) nə Allah, nə də Allahın oğlu ola bilər. Allahdan başqa nə varsa, hamısı Allahın məxluqatları və ona ehtiyaclıdırlar.

Xristianlara gəldikdə isə İsanı «Allah», «Allahın oğlu» müraciətlərilə ilahiləşdirdikləri halda, onu insanlar tərəfindən çarmıxa çəkiləcək qədər acizləşdirirlər. Əslində belə bir əqidənin kökü təhrif olunmuş incillərə qayıdır. Çünki incillərdə həzrət İsanın (ə) özünün istəmədiyi halda və məcburi şəkildə asılıb çarmıxa çəkildiyini ifadə edən yerlər mövcuddur: «Allahım, Allahım! Məni niyə tərk etdin?» - deyə yüksək səslə çığırdı. *(Matta -27, 46)* Mattaya əsasən, İsa (ə) bu sözü çarmıxa çəkilmiş vəziyyətdə, ruhunu təslim etməmişdən bir az öncə söyləmişdir. *(Bax: Mark, 15, 34)*

Xristianların üç üqnum əqidəsini sübut etmək üçün istinad etdikləri başqa bir cümlənin *(Matta, 28, 19)* çox qədim nüsxələrdə olmaması və bu cümlənin sonradan incillərə əlavə edilməsi isə tədqiqatçılar tərəfindən açıq şəkildə bildirilmişdir. Bundan əlavə, belə ibarələr «Ata, Oğlu və Ruhul-Qüds...» Qurani-kərimin bir çox ayələrində «Allah, Onun Rəsulu və İlahi mələkləri...» kimi ibarələrlə zikr olunmuşdur. Halbuki, İslamın tövhidə olan həssasiyyətini və Allahdan başqa bir məbuda etiqadın batil olmasını Quranın səhifələrində açıq görmək

olar. Deməli, üç ismin ardıcıl gəlməsi üç üqnum əqidəsini sabit etmir. Belə olsaydı, o zaman dörd, ya beş ismin ardıcıl səslənməsi dördlük, ya beşlik əqidəsini sabit edərdi. Doğrudan da, xristianların köklü inancları olan təslisi sübut etməkləri üçün belə bir süst dəlillərə istinad etməkləri bu dinin zəifliyini sübuta yetirir.

Xristian dünyasının iki məşhur elmi-dini ensiklopediyası «Üç üqnum əqidəsi»-nin Qədim-əhddə və İncildə mövcud olmadığını yazır. Və məsihilərin hər iki kitabda «üçlüyə» istinad etdiyi cümlələrin hamısının əsassız olduğunu bəyan edir.[111]

Henri Tesin «Məsihi ilahiyyatı» əsərində (88-ci səhifə) iddia edir ki, hətta indiki «üç üqnum əqidəsi»ni Pavelin və Yəhyanın yazılarından da ələ gətirmək qeyri-mümkündür.

Həmçinin, Qədim-Əhddə Allah barəsində danışılarkən cəm əvəzliyindən və cəm şəkilçilərindən istifadə olunması[112] birbaşa «üçlüyə» dəlalət edə bilməz. Çünki bu ədəbi dildə əks olunan ehtiram, hörmət mənasınadır. Biz Qurani-kərimə nəzər yetirdikdə orada da Allah barəsində cəm əvəzliyi və cəm şəkilçilərindən istifadə olunduğunu görürük.

Bu isə dininin kökünü və təməlini «tövhid»in təşkil verdiyi Quranın, Tanrıya qoyduğu ehtiramdır.[113] Diqqət yetirmək lazımdır ki, Əhdi-ətiqdə və İncildə «Allah», «Rəbb», «Allahın oğlu» kəlmələri də məcazi məna olaraq Musa (ə), Yusif (ə), Süleyman (ə), İsa (ə) və İsrail tayfası haqqında işlədilmişdir:

1. Allah Musaya dedi: «Bax, səni Firona Allah etdim və qardaşın Harunu sənə peyğəmbər qərar verdim.» *(Çıxış, 7-ci fəs. 1-ci cüm.)*
2. «Allah dedi: Süleymanı seçdim ki, mənim oğlum olsun və mən də, onun atası» *(Günlərin tarixi, 28-ci fəs. 6-cı cüm.)*
3. «Allah dedi: İsrail tayfası mənim oğlumdur.» *(Çıxış, 4-cü fəs. 22-ci cüm.)*
4. «Madam ki, mən Rəbb olduğum halda ayaqlarınızı yudum.» *(Yəhya, 13-cü fəs. 14-cü cüm.)*
5. İsa dedi: «Allahın oğluyam» dediyim üçünmü, Atanın təsdiq edib dünyaya göndərdiyi şəxsə, «küfr edirsən» deyirsiniz?» *(Yəhya, 10-cu fəs. 38-ci cüm.)*

Bütün bunlar həqiqi mənada deyil, «Allahın seçilmiş bəndəsi», «elçisi» və «peyğəmbəri» mənasınadır.

İsanın (ə) barəsində« İncil»lərdə işlənmiş «Rəbb», «oğul» sözləri də həqiqi mənada ola bilməz. Lakin dörd incilə artırılmış məktublar isə bəzən bu kəlmələri məcazi mənada deyil, öz həqiqi mənasında işlətmişdir. Elə bu səbəbdən də Yeni-Əhd sonrakı nəsillərin bu sahədəki əqidə inhirafına səbəb olmuşdur.

«İncil»lər İsanı (ə) bizə, yalnız insan övladı, «peyğəmbər» və «bəndə» kimi tanıtdırır və aşkarcasına bizi «tövhidə» səsləyir, «oğul», «rəbb» kəlmələri həqiqi məna ola bilməz. Bir baxın:

1. «Əmrlərin ən birincisi! Dinlə, ey Bəni-İsrail, Allahımız Rəbb, bir olan Rəbbdir!» («Allahımız» kəlməsinə diqqət edin.) *(Matta, 22-ci fəs. 34-40; Mark, 12-ci fəs. 29-30-cu cüm.; Luka, 10-cu fəs. 25-28-ci cüm.)*
2. «Allah dedi: «Budur, Mənim seçdiyim bəndə (İsa).»
3. «Bu, Qalileyanın Nazaret şəhərindən olan İsa peyğəmbərdir.» *(Matta, 21-ci fəs. 11-ci cüm.)*
4. «Kim İnsan oğlu İsaya qarşı...» *(Matta, 12-ci fəs. 32-ci cüm.)*
5. «İnsan oğlu (İsa) qeyb olmuşları axtarıb...» *(Luka, 19-cu fəs. 10-cu cüm.)*
6. «İsa dedi: «İndi insan oğlu (mən) izzətləndi.» *(Yəhya, 13-cü fəs. 31-ci cüm.)*

---

111. ER. V. 15, P. 54 və ERE, V. 12, P. 458
112. Varlıq, 1-ci fəs. 26-cı cüm. 3-cü fəs, 22-ci cüm, 11-ci fəs. 7-ci cüm
113. Kövsər\1; Qədr\1

M. Miller yazır: «Diqqət etmək lazımdır ki, kilsənin iddia etdiyinin tam əksinə olaraq, İsa (ə) özünü nə cismani, nə də ruhi cəhətdən «Allah» və «Allahın oğlu» adlandırmışdır. O özünü və başqalarını «oğul», Allahı isə «Ata» ona görə adlandırmışdır ki, hamı uca Yaradana bağlı və ona möhtacdır. Hamı Allahın «bəndəsi» olmaq - «Allahın oğlu» olmaq üçün çalışmalıdır.

Dar düşüncəli insanlar isə bunu başa düşməyərək və ya bilərəkdən, məcazi mənanı tullayaraq, onu həqiqi mənada işlətmişlər.» *(«Qədim kilsə tarixi», səh. 68)*

Millerin sözü, məntiqə olduqca uyğun gəlir. Çünki İsa (ə) «İncil»də hamını «Allahın övladı» sayır.

«Görün, Ata (Allah) bizə necə bir məhəbbət göstərmişdir ki, biz hamımız «Allahın övladları» adlanırıq. Sevimlilərim, indi biz Allahın övladlarıyıq.» *(Yəhya, 1-ci məktub, 3-cü fəs. 1-2-ci cüm.)*

«İsanın Məsih olduğuna iman gətirən hər kəs Allahdan doğulmuşdur.» *(Yəhya, 1 məktub, 5-ci fəs. 1-ci cüm.)*

«Allahdan doğulan kimsə günah işlətməz... Kimin Allahın övladı, kimin də şeytanın övladı olduğu bundan bəlli olur.» *(Yəhya, 1-ci məktub, 3-cü fəs. 9-10-cu cüm.)* Yuxarıdakı cümlələrə diqqət etdikdə, «oğul»un məcazi mənada olduğu gün kimi aydınlaşar.

Böyük rus yazıçısı, alim, Tolstoy bu barədə belə yazır: «Məsihilər» Allahın oğlu ibarəsini təkcə İsaya aid edərək, bu ləqəbi fəqət ona məxsus etdilər. Və başqa insanların bu adla çağrılmasına razı deyildilər. Bu ləqəb bütün bəşərə aiddir və təkcə müəyyən bir şəxsə məxsus deyildir! Bu, incildən həqiqi məlumatı olan hər kəsə gün tək aydındır.»

Bəli, incil deyir: «İsa dedi: Qoy sizin nurunuz insanların qarşısında elə parlasın ki, xeyirxah işlər görsünlər və göylərdəki atanıza həmd etsinlər.[114] Siz göylərdə olan atanızın oğulları olasınız.[115] Beləliklə, səmavi atanız (Allah) kamil olduğu kimi siz də kamil olun![116] Ehtiyatlı olun... Yoxsa səmavi atanızdan mükafat almazsınız![117]

Sədəqən gizli olsa, atan da sənə açıqca əvəzini verəcəkdir.[118] Gizlində atana (Allaha) dua et.[119] Çünki atanız[120] (cəm şəkilçisi)... İsa dedi: Ey göylərdə olan atanız...[121] (cəm şəkilçisi)

Səmavi atanız! (nəinki atam?!) Və həmçinin (*Matta, 6-cı fəs. 18 s, 6-cı fəs. 26 s, 7-ci fəs. 11 s. və s.)*

Gördüyünüz kimi, «Ata» ibarəsi Allaha məcazi mənada aid edilmişdir. İsa özünü də məcazən «Allahın oğlu» adlandırmışdır. Çünki o özünü və digərlərini Allahın yaradılmışı və bəndəsi sayır... Lakin məsihilər bu ibarələri öz həqiqi mənasında «mən», Tolstoy Nikolay oğlu» olduğu kimi işlədirlər! Mən bu müşriklərin sözlərindən Allaha pənah aparıram! Görən, bu azğınlıq və zəlalətin nişanəsi deyildirmi?! Bütün bunlar əbədi, əzəli, sonsuz, bənzərsiz və yeganə olan Allaha şərik qoşmaq deyildirmi?!» *(«L. N. Tolstoy, «İncilə müqəddimə», səh. 25)*

L. N. Tolstoyun sözlərinə diqqət etsək, görərik ki, bu alimin ümdə iradı xristianlığa, onların şirkə və bütpərstliyə (üç Allahlığa) üz gətirmələridir.

Deməli, Tövhiddən başqa əqidəyə inancın batil və əbəs olması təkcə islamın və müsəlman aləminin fikri deyil. Xristianlığı dərk edən və onun iç üzünü bilənlərdə bu məsələyə etiraf edirlər. Necə ki, xristian dünyasının böyük filosofu Volter yazır:

---

114. Matta, 5-ci fəs. 16
115. Matta, 5-ci fəs. 45
116. Matta, 5-ci fəs. 48
117. Matta, 6-cı fəs. 1
118. Matta, 6-cı fəs. 4
119. Matta, 6-cı fəs. 6
120. Matta, 6-cı fəs. 8
121. Matta, 6-cı fəs. səh. 8, 14-15-ci cüm.

«Dünyada mövcud olan dinlər arasında təkcə İslam dini İlahi dininə bənzəyir. Məhəmmədin (s) yaydığı bu din sözsüz ki, xristianlıqdan olduqca üstündür. Çünki İslam heç bir yəhudi kişin (İsa (ə)) Allah və heç bir yəhudi qadını (Məryəm (ə)) Allahın anası (və həm də Allahın arvadı?!) sanmamışdır...

Məhəmmədin dini heç zaman Allaha küfr etməmiş, bir Allahı eyni halda üç bilməmişdir, onun dini məsihilərin düşündüyü kimi Allahı «Rəbbani gecədə» çeynəyib həzm edərək çirkablığa atmamışdır! *("İslam Volter baxımından", səh. 99)*

Təbiidir ki, üç Allahın bir və birin üç olması insanda ilk baxışda çaşqınlıq yaradır. Lakin azacıq diqqət etdikdən sonra bu əqidənin gülünc olması aydın olur. Ona görə ki, bir fərd yalnız bir və üç fərd yalnız üç olaraq qalır.

Və birin üç olması və üçün bir olması heç bir ağıla sığmır. Bütün bu söylənilənlərdən məlum olur ki, İslam dininin bəyan etdiyi «tövhid» inancını bəşərin ağıl və təfəkkür sahibləri həmçinin, insanların daxilindən gələn hissləri təsdiqləyərək xristianların kor-koranə əqidə bəslədikləri «Üç Allahlıq» inancını əsassız və məntiqsiz sayır.

## Üç üqnum əqidəsinin qısa tarixi

Diqqət etmək lazımdır ki, Pavelin məktublarında «üç üqnum əqidəsi birbaşabəyan olunmasa da, onun İsanın «Allahın oğlu» sayması, «Fəda-qurtuluş» etiqadlı olması və onu ilahiləşdirməsindən xəbər verən risalələri», bu əqidənin yaranmasında əsaslı rol oynadı. Elə bu səbəbdən də o, üç üqnum əqidəsinin, banisi sayılır. Pavelin tərbiyə etdiyi kilsə rəhbərləri «üç üqnum əqidəsini» Məsihi dininin kökü və bünövrəsi adlandıraraq, buna inanmağı hamıya vacib saydı. «Üç üqnum əqidəsi»-nə inanmayanları isə təqib etməyə və cəzalandırmağa başladı.

İsanın (ə) həqiqi həvariləri onun təlimlərini olduğu kimi öz şagirdlərinə və tərəfdarlarına təbliğ edirdi. Onlar Pavelin uydurmalarına məhəl qoymadan İsanı (ə) «Allahın oğlu» saymır, «Fəda-qurtuluş» əqidəsinin batil olduğunu israrla vurğulayırdılar.

İş o yerə çatdı ki, İranaeyus[122] (130-200) 190-cı ildə şəxsən Papa Viktora məktub yazaraq, «üç üqnum əqidəsinə» inanmayanların qanını tökməyə son qoymasına çağırdı. O özü də bu əqidəyə inanmırdı.

Tertulyant (160-220), İrgen (180-254), Dyodros, Lusyan (312), Aryus[123] (250-336) kimi dövrünün görkəmli şəxsiyyətləri də «üç üqnum əqidəsinə» inanmamış və daim onunla mübarizə aparmış, hətta bu yolda şəhid olmuşlar.

Birinci əsrdə yaşayan çoxsaylı məsihi məzhəbləri, məsələn, Ebionites, Cerinthians, Basilidians, Carporatians, Hypisistarians və sair... «üç üqnum əqidəsinin» tam əleyhinə idilər.

Qeyd etmək lazımdır ki, «üç üqnum əqidəsinə» inananlar və inanmayanlar arasındakı ixtilaflar o qədər şiddətli idi ki, din rəhbərlərindən əlavə, xalq, yəni hər qrupun tərəfdarlarının belə bir-birilərini görməyə gözü yox idi. *(«Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 625 və «Protestant[124] ilahiyyatı», c. 2, səh. 729-734)*

---

122. Layunz məntəqəsinin baş keşişi.
123. Aryus, İskəndəriyyə şəhərindəki kilsənin rəhbəri idi. İsanın (ə) Allahın oğlu yox, peyğəmbər kimi tanıyırdı. Onun tərəfdarları da onun kimi Pavelin fikirlərinin əleyhinə idi. Arianizm firqəsi VI-VII əsrlərə qədər davam tapdı. Sonra isə şiddətli təqiblərə məruz qaldığı üçün məhvə uğradı.
124. Protestantizm, (latın sözüdür, (protestans) etiraz edən», «açıq şəkildə sübut edən» mənasınadır) Katolisizm və pravoslavlıqdan sonra xristianlığın reformasiya dövründə meydana gəlmiş cərəyan. Protestantlar katolik məşhərini qəbul etmirlər. Bəzi müqəddəsləri, mələkləri və Məryəmi (ə) bir növ rədd edirlər. Protestantların təsəvvürünə görə insana firavanlıq, səadət Allahın köməyilə nəsib olur. Kilsədən yan keçməklə «nicat» yalnız insanın şəxsi etiqadı və Allahın iradəsi sayəsində əldə edilir. Onlar nəinki kilsəyə və ruhanilərə, eyni zamanda dini ayinlərə də ikinci dərəcəli

Nəhayət, ki, Konstantin həm din xadimlərinin, həm xalqın və həm də öz ailəsi daxilindəki qarşıdurmalardan bezdi.[125] Və çəkişmələrə «son qoymaq niyyəti ilə bir şura yaratdı». Sonradan «nikeyya» adlanan bu şura yaranmış ixtilaflara «vahid qərar»la son qoymalı idi. Konstantin isə özünü bitərəf göstərməyə çalışırdı. Çünki o nüfuzunu saxlamaqla, daha doğrusu, özünə düşmən qazanmamaqla birgə, arvadının və bacısının da tənələrindən qorxurdu.

Tarixi mənbələrə əsasən, Pavelin tərəfdarları Nikeyya şurasında, 325-ci ildə, məğlub olsalar da, şurada iştirak edənlərin əksəriyyəti «üç üqnum əqidə»sini təsdiqləməyə səs verdilər. Onu şuranın vahid əqidəsi kimi tanımağa imza atdılar. Buna səbəb isə, söylənilən əqidənin bütpərəst Konstantinin dininə olan hədsiz oxşarlığı idi. Bəyannaməyə diqqət etdikdə isə hər şey aydın olur: «Nikeyya məclisinin son qərarı:

1. (Roma bütpərəstlərinin müqəddəs saydığı) bazar günü, rəsmi dini tətil elan olunsun.[126]
2. (Günəş Allahının «doğulduğu» gün) 25 dekabr İsanın (ə) ad günü qərar verilsin.[127]
3. Günəş üzərində olan xaç müqəddəs sayılsın.[128]
4. «Üç üqnum əqidəsi» məsihiyyətin ana əqidəsi qərar verilsin.»

Yadda saxlamaq lazımdır ki, ümumiyyətlə «üç başlanğıc» inamı Assuriya və qədim Babilistan dinlərində də var idi. Dünyada yaranmış ilkin «üç başlanğıc» haqqındakı fikir isə günəşpərəstlərə aiddir. Bu əqidə «Hind-Avropa üçlüyü»nün bünövrəsini təşkil edir. «Veda» larda oxuyuruq:

«Günəşə iman bəsləyirik. O, bir Allahdır, hər şeyi idarə edəndir, yerin və göyün yaradanıdır. Onun yeganə, vahid, «oğlu» olan «Atəşə» iman bəsləyirik. O, nurdan bir nurdur. «Qeyri-məxluq»dan doğulmuş və mahiyyətcə «Ata» ya bərabərdir. O, «ruh» dan cəsəd şəkilində yaranmış, bakirə qızın bətinində yerləşmişdir.»

Burada maraqlı bir faktı da qeyd etmək yerinə düşərdi: «Nikeyya şurasında 300-ə yaxın biri-birindən fərqli «incil» əlyazmaları ortaya çıxdı. İncillərin hansının saxta, hansının həqiqət olmasını dəqiqləşdirmək Konstantinə o qədər ağır gəldi ki, olduqca gülünc bir qərar qəbul etdi: «Bütün incillər «mərkəzimizdə» yığılsın. Otağın qapısı kilidlənsin. Bütün gecəni «müqəddəs atalar» Allaha dua etsin ki, həqiqi incil mizin altından çıxıb, onun üstündə qərar tutsun!» Elə belə də oldu.

Səhər açılanda, Pavelin əqidəsini dəstəkləyən incil - İskəndərin nümayəndəsi Asanasyusun gətirdiyi incil - mizin üzərində müşahidə olundu. Bununla da qalan bütün incillər zorla müsadirə olunaraq çox hissəsi yandırıldı, bəziləri isə arxivdə saxlanıldı. Amma heç kim Konstantinin qorxusundan soruşa bilmədi ki, otağın açarı gecə kimin yanında idi. Çünki əgər açar Konstantinin yanında olmuş olsaydı, sual edən, şübhəsiz padşaha qarşı böhtan və təhqir ittihamı ilə edam olunacaqdı.[129]

Lakin ixtilaflar səngimədi və 381-ci ildə Konstantiniyyə şurası təşkil olundu. Bu şura «Üç üqnum əqidəsi»ni təkmilləşdirərək onu təsdiqlədi. Belə ki, müqəddəs Ruhu da zatən Ata Allah və oğul Allah (İsa) ilə eyni məqamda sayaraq vahid bir zata məxsus olduğunu bəyan etdi.

«Üç üqnum əqidəsi»nin tərəfdarları və müxalifləri arasındakı münaqişələr, bununla sona yetmədi. Bu səbəbdən də, Koldson şurası (451-ci ildə) quruldu. Koldson şurası İsanın (ə) insan olduğuna etiraf etdi, eyni halda isə yenə onu Allahın oğlu saydı. Bu isə müxalifləri razı salmadı. 589-cu ildə Atanasyus

---

yer ayırırlar. (Şəriət öz əhəmiyyətini itirmiş) ikonalara, quru cəsədlərə, təbərrüklərə sitayiş yoxdur. Skandinaviya ölkələrində Almaniya, İsveçrə, Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və s. kimi ölkələrdə yayılmışdır.

125. Konstantin bütpərəst idi. Yelena (arvadı) Pavelçi və Konstantina (bacısı) Pavelin əleyhdarı idi.

126. Xristianlar əvvələr «cümə» gününü tətil sayırdılar.

127. Bəzi xristian məzhəbləri bu günün İsaya aid olmadığını söyləyirlər. Məs: Yeqova şahidləri. Onlar ümumiyyətlə üç üqnum əqidəsinə də inanmırlar.

128. Konstantin günəş Allahına ibadət edirdi.

129. "İsa (ə) İslam elçisi", Doktor Əhməd Behişti, səh. 133

şurası da çəkişmələrə son qoya bilmədi. Baxmayaraq ki, müqqəddəs Ruhun Allahla eyni xətadan olmadığını söylədi, amma bu «Üç üqnum əqidəsi»nə etiraz edənləri qane etmədi. *(«Dinlər tarixi», c. 3, səh. 771-768; «Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 471-472; «Protestant ilahiyyatı», səh. 17-20; «Mədəniyyətlər tarixi», səh. 633-636)*

XII əsrdə Fransanın cənubunda Albi vilayətində Albikenses adlı məsihi firqəsi yarandı. Onlar kilsənin ədalətsizliyinə və amansız zülmünə etirazla birgə,[130] «İncil» ləri başqa cür təfsir edir, «Üç üqnum əqidəsini» rədd edir və İsanı (ə) Allahın oğlu saymırdılar. 1208-ci ildən etibarən 20 il ərzində bir vilayət yerlə yeksan edildi. Papanın xüsusi canişini Arnauld uşaqdan tutmuş qocaya qədər hamını öldürməyi əmr etdi. Və amansız təftişlər Albikenses firqəsini yer üzündən sildi.[131]

Amma «üç üqnum əqidəsi» ətrafındakı ixtilaf və münaqişələr nəinki səngimədi, əksinə, daha da gücləndi. Bu hətta orta əsrlərdə də müşahidə olunur.[132]

XVII əsrin birinci yarısı çoxsaylı alimlər və tədqiqatçılar İsanın (ə) «Allahın oğlu» olmasını inkar etdilər.[133]

XVI əsrin sonu, XVII əsrin əvvəllərində Protestant məzhəbinin öz içində italiyalı xristian alim Sosinus (1549-1604) ki, sonradan onun fikirləri «Sosinianism» adı altında inkişaf etdi, «üç üqnum əqidəsini» rədd edərək, onu yunan fəlsəfəsinin qalıqları saydı. Məsihi «Allahın oğlu» yox, adi nümunəvi insan və peyğəmbər adlandırdı.[134]

İspaniyalı S. T. Mixail (1511-1553) 1531-ci ildə «Üç üqnum inancının səhifələri» adlı kitab yazaraq, bu inanca inamı rüsvay etdi. O belə əqidənin incildə öz əksini tapmadığını, İsanı«Allahın oğlu» adlandırmağın küfr və dinsizlik olduğunu yazdı.

Lakin M. Lüterin (1483-1546) davamçıları və Kalvin[135] tez bir zamanda onu kafir adlandıraraq, oda atıb diri-diri yandırdılar.[136]

İndi də onun tərəfdarları Untitarianistlər, İtaliya, Rumıniya, İsveç, Hollandiya, İngiltərə, Amerika, Macarıstan və sair ölkələrdə fəaliyyətdədirlər.[137]

1303-cü ildə «Papa» rütbəsinə malik VIII Boniface belə deyir: «Gülməlidir ki, bunlar Allahı həm üç və həm də bir sanırlar... Gülməlidir ki, «Allah insan surətində dünyaya gəlibdir» deyirlər.» *(«Mədəniyyətlər tarixi», c. 4, səh. 1098)* İtaliyalı Qabril Dasalo, Fransalı Kastalyun, Hollandiyalı D. Erasmus, İtaliyalı Cordana Bruno[138] və C. Vanini,[139] rusiyalı L. Tolstoy[140] və digər yüzlərlə

---

130. «İncillərin mahiyyəti haqda», səh. 127-128
131. Həmin yer, səh. 128-129; «Mədəniyyətlər tarixi», c. 4, səh. 1037
132. Helzi Hal, Levis Vilyam, «Elm fəlsəfəsi və tarixi», səh. 135
133. «Mədəniyyətlər tarixi», c. 7, səh. 220
134. «Protestant ilahiyyatı», 34 səh; K. Braun. «Fəlsəfə və Məsihi əqidəsi», səh. 30; «The New Encyclopedia Britannica», 15 th editian. (32 vols)
135. Jan Kalvin (1509-1564) «Fransada Reformasiya xadimlərindən biri. 1536-ci ildə Cenevrəyə köçmüş və burada diktator olmuş (1541), dünyəvi hakimiyyətin kilsəyə tabe edilməsinə nail olmuşdur. O öz təlimləri ilə burjua sahibkarlığına haqq qazandırmışdır. Barışmaz protestant olan Kalvin öz hakimiyyəti dövründə bir çox alimləri, o cümlədən də, M. Serveti diri-diri oda ataraq, yandırmaq əmri vermişdir (1553). («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 213)
136. «Dinlərin ətraflı tarixi», səh. 680-681; «Mədəniyyətlər tarixi», c. 6, səh. 566; «Dünyanın hazırkı dinləri», səh. 361, Robert Hiyom
137. İ. Mulent, «Xristian dünyası», səh. 309-313; F. Devid, M. Suzini, F. P. Suzini, C. Bedel, Milton, Nyuton və başqaları da təkallahlı olmuş, «üç üqnum əqidəsi»ni rədd etmiş və İsanı (ə) yalnız peyğəmbər saymışlar.
138. Cordano Bruno (1548-1600) italyan filosofu, sxolastik fəlsəfə və Roma katolik kilsəsi əleyhinə mübariz; 8 illik həbsdən sonra inkvizisiya tərəfindən Romada yandırılmışdır. («Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu, səh. 66)
139. Culio Cezare Vanini (1585-1619) italyan alimi, kilsəyə qarşı «hörmətsizlikdə, küfr»də müqəssir bilinərək Tuluza şəhərində diri-diri yandırılmışdır.
140. Lev Nikolayeviç Tolstoy (1828-1910) rus yazıçı və mütəfəkkiri.

alim «üç üqnum əqidəsi»nə qarşı çıxmış və onlardan bəziləri ağır işgəncələr altında canını tapşırmış, amma öz fikrindən əl götürməmişdir.[141]

İndiki azad fikirli xristian mütəfəkkirləri artıq «Allahın oğlu İsaya» yox, nümunəvi isan-peyğəmbər olan İsaya (ə) inanırlar.[142]

Alman alimi Nitsşe (1844-1900) «üç üqnum inancı»na etiraz səsini ucaltmaqla birgə, İsanın (ə) edam olunmadığını da təsdiqləyir. *(Nitsşe, «Yaxşı və pis», səh. 91)*[143]

Alman filosofu və ilahiyyatçısı Şlayxmaxer[144] (1768-1834) XIX əsrdə[145] və onun müasiri D. Kant[146] (1724-1804) bu inancın əleyhinə çıxmış[147] və İsa Məsihin (ə) yalnız ilahi peyğəmbər olduğunu söyləmişlər. İsveç alimi Svidinbergi (Svedenborg[148]) (1688-1774) də bu cərgəyə aid etmək olar.[149]

Əsrlər boyu Avropanın ən tanınmış alim, filosof, ilahiyyatçı və tarixçilərinin, bu əqidəyə qarşı çıxmaları, Pavelin İsa (ə) barəsindəki etiqadnaməsinin nə qədər əsassız və uydurma olduğundan xəbər verir. Bu etiqadlar əgər İsanın (ə) həqiqi təlimlərində olsaydı, heç vaxt həvarilərin belə şiddətli ixtilafları ilə üzləşməzdi. Diqqət etmək lazımdır ki, burada söhbət dinin kök və əsl bünövrəsi barəsində yaranmış ixtilafdan gedir, nəinki hər hansı mübahisə törətmiş bir rəvayət və canişinlik iddiasından. Çünki əgər bu mübahisə dində olan hər hansı bir hökm və ya İsadan (ə) sonra olacaq canişin barəsində olsaydı, məsələyə adi yanaşmaq mümkün idi. Amma burada söhbət dinin özündən, özülündən gedir. Yaranmış ixtilaf və pərakəndəlik elə bu səbəbdən də təəccüb doğurur, İsanın (ə) həqiqi dinində belə xurafat dolu əqidənin olmadığını yetirir.

Beləliklə, Volterin «üç üqnum əqidəsi» barəsində söylədiyi fikirlərlə bu bəhsi sona yetiririk:

İnsan, «Allah olan İsanın» necə ana bətnində doğularaq bu dünyaya gəldiyini, sonra isə insanlar tərəfindən dara çəkilərək öldüyünü və yenidən dirildiyini fikirləşdikdə, heyrətə gəlir. Ağıllı insan bu sözün batil , uydurma olduğuna istər-istəməz etiraf edir. Hər nə qədər özündən soruşsan ki, adi bir yəhudi (İsa) necə oldu «Allah» oldu?!» Öz sualına cavab tapa bilməyərək, onun fərziyyə olduğunu anlayır.

Qəribədir ki, məsihilər «üçün bir və birin üç» olduğunu başa düşmədikləri halda, ona necə inanırlar? Bu açıq-aşkar düşüncəsizlik deyilmi? Qədim iranlılar və yunanlar günəşə pərəstiş edirdilər. Saiblilər ulduzları, finlilər küləyi və keçmişdə yəhudilər «mis ilana» ibadət edirdilər. Lakin bəşərin rüsvayçılığı o dərəcəyə çatdı ki, adi bir insanı sonsuz, əbədi-əzəli Xaliq, Yaradan sandırlar! Və bununla kifayətlənməyərək, öz Allahlarının «ətini və qanını «çörək və şərab» şəklində dilləri arasında çeynəyir, onu həzm edərək çirkablığa qərq edirlər.

İlahi, ey Ulu Tanrı, mən sənin varlığına inanıram! Sənsə mənim bu səmimi naləmi eşit və qəbul et. Mənim dinsizliyim (hər hansı bir dinə qulluq etməməyim) Səni alçaltmır. Amma bu camaat səni təhqir edərək, düzgün tanımır. Mən xristian deyiləm! Çünki səni çox sevirəm. Və daim sevmək istəyirəm.» *(«Volterin külliyyatı», c. 26, səh. 292)*

---

141. «Mədəniyyətlər tarixi», c. 5, səh. 605; c. 6, səh. 348 və 575; «Elm fəlsəfəsi və tarixi», səh. 171; Keoi Velf «İncillərin mahiyyəti haqda», səh. 104-128
142. «Protestant ilahiyyatı», səh. 58-113«Elm fəlsəfəsi və tarixi», səh. 171; Keoi Velf «İncillərin mahiyyəti haqda», səh. 104-128
143. «Qərb fəlsəfəsi tarixi», c. 1, səh. 462
144. Fridrix Ernest Daniel Şleyermaxer (1768-1834) alman protestant teoloqu və filosofu.
145. «Fəlsəfə və məsihi əqidəsi», səh. 111-112
146. İmmanuil Kant (1724-1804) alman filosofu və alimi, klassik alman idealizminin banisi.
147. Həmin yer, səh. 102
148. Svedenbarq Emmanuel (1688-1772) isveç natrualist alimi.
149. «Xristian dünyası», səh. 290-292

## Üç üqnum İslam baxımından

Qurani-kərimin ən əsaslı və köklü məsələlərindən olan tövhid anlayışı, İlahi mərifətlərin birincisi olmaqla yanaşı İslam dinində olan bütün məsələlərin istisnasız şəkildə dayaq nöqtəsidir. Həmçinin, Quranda göstərilən peyğəmbərlərin heç birinin vahid Allaha doğru çağırışları bu kitabda zikr olan səmavi dinlərin bir tanrı tərəfindən göndərilmələri, İslam Tövhid inancını ləkələyən və ona şübhə oyadacaq ən kiçik fikirlərlə belə mübarizəsini bir daha açıq şəkildə bəyan edir. Elə buna görə də, Qurani-kərim İlahi Tövhiddən uzaq düşməyi bağışlanmayan bir günah sayaraq buyurur: «Allah-Taala heç vaxt ona şərik qoşmağı bağışlamaz. Lakin əgər bundan başqa günah olarsa (ilahi məsləhəti olduğu halda) istədiyi şəxsi bağışlayır.» *(Nisa, 48)*

Deməli İslamda şirk və tövhiddən uzaq düşmək necə böyük bir günahdırsa, Allah-taala bütün günahları məsələhət bildiyi zaman bağışlayır, lakin şirki heç bir vaxt bağışlamağa hazır deyil. Hətta müqəddəs Quranda müşrik insanın yaxşı əməllərində İlahi yanında puç və dəyərsiz sayılır: «Sənə və səndən qabaqkı bütün peyğəmbərlərə vəhy olunmuşdur ki, əgər müşrik olsanız əməllərinizin hamısı hədər olacaqdır. Və əlbəttə ki, ziyan görənlərdən olacaqsınız.» *(Zümər, 65)*

Müqəddəs Quran həmişə «üç üqnum əqidəsi»ni və Allaha şərik qoşan bütün əqidələri batil sayaraq, belə bir inanc sahiblərini nifrin etmişdir. Buna nümunə olaraq bir necə ayəyə işarə edirik:

1. «Həqiqətən də Allah üçdür deyənlər kafir oldular. Allahdan başqa bir Allah yoxdur. Əgər onlar (Məsihilər) öz dediklərindən əl çəkməsələr o kafirləri böyük əzab gözləyir!» *(Maidə, 73)*
2. «Yəhudilər dedilər: Üzeyir Allahın oğludur. Xristianlar dedilər: Məsih Allahın oğludur. Onlar öz sözlərilə özlərini küfr edənlərə oxşadırlar. Allah onları öldürsün. Yenə Allaha böhtan atırlar.» *(Tövbə, 30)*
3. «Allah, Məryəm (ə) oğlu məsihdir deyəndər kafir oldular. Bir halda ki, Məsih dedi: Ey Bəni İsaril, mənim və sizin rəbbiniz olan Allaha ibadət edin. Allah, ona şərik qoşana Cənnəti haram və Axirətin isə Cəhənnəm etmişdir.» *(Maidə, 78)*

Ümumiyyətlə, Qurani kərim Allah-təalanı «Allah birdir», «Onun heç bir şeyə ehtiyacı yoxdur», «O hər bir şeyə qadirdir», «Allahın misli-bərabəri yoxdur», «O sizin qəlblərinizə agahdır» və bu kimi yüzlərlə ayədə ən kamil və əlçatmaz vəsflərlə mədh edir. Və dönə-dönə Uca Tanrının təkliyinə israr edən Quran öz sözünün sübutu üçün buyurur: «Əgər yerdə və göydə Allahdan başqa Allahlar olsaydı, o zaman bütün aləmin nizam-intizamı pozulardı. Ərşin Rəbbi olan Allah ona nisbət verilənlərdən (Ata və ya şərik sahibi olmaqdan) uzaqdır.» *(Ənbiya , 22)*

Qurani kərim yuxarıdakı ayədə kainatın iki və ya çox Allah tərəfindən yaradılmasını, ya idarə edilməsini qeyri-mümkün sayıb və bunun səbəbini kainatda nizam-intizamın pozulması ilə açıqlayır. Qurana görə, əgər dünyanı yaradan iki, ya çox Allah olsaydı, o zaman onların hər biri dünyanı və onun parçalarını istədikləri formada yaradardı. Bu da dünyanın düzgün qurulmaması və nəhayət, onun dağılması ilə nəticələnərdi. Məsələn, günəşi yaradan Allah o qədər istilik verərdi ki, başqa Allahın yaratdığı insanlar günəşin fövqəladə və dözülməz hərarəti nəticəsində məhv olardılar. Həmçinin, küləyi yaradan Allah ona elə bir qüvvə verərdi ki, o biri Allahın yaratdığı bütün varlıqları göyə sovurardı. Deməli, əgər hazırda dünya nəzmlə yaranıb və proqram əsasında idarə olunursa, bu o deməkdir ki, yaradan və idarə edən yalnız qüdrəti tükənməyən vahid bir varlıqdır (Allahdır).

Belə sual meydana gələ bilər ki, dünyanı yaradan və onu idarə edən bir neçə Allahı təsəvvür etmək heç də qeyri-mümkün bir şey deyil. Ona görə ki, təsəvvür etdiyimiz Allahlar dünyanı ya-

radarkən və onu idarə etdikləri vaxt bir-birilərilə məsləhətləşib nəzm-intizamı qoruya bilərlər. Beləliklə, çox Allahın mövcud olması ağıldan kənar deyil.

Cavab: Əgər Allahlar bir-birilərilə məsləhətləşirlərsə, bu o deməkdir ki, onların heç biri tükənməz elmə və qüdrətə malik deyil. Çünki, məsləhət nəyisə bilməyəndə və ya nədəsə şəkk edəndə və yaxud da hansısa bir mürəkkəb məsələdə ortaya çıxır.

Allah-təala isə bütün dinlərə əsasən hər bir şeyi bilir və onun üçün qaranlıq və mürəkkəb heç bir şey yoxdur. Deməli, Allah-təaladan başqa Allahların mövcud olmaları, hətta təsəvvür olunmaları belə batil və ləğv sayılır.

Elə buna görə də Qurani-kərim Məhəmməd peyğəmbər (s) və onun Əhli-beyti (ə) həmişə məsihiyyətdə sonradan meydana gəlmiş küfr və şirk fikirlərlə mübarizə aparırdı. Dediyimizə nümunə olaraq İmam Rzanın (ə) yəhudi və xristian alimlərilə bu mövzuda apardığı bəhslərdən bir neçə parçanı (ixtisarla) nəzərinizə çatdırırıq.

İmam Rza (ə) Məmunun sarayında Məsihi alimi Caselikdən soruşur: «İsanın ölüb-dirilməsinin Allahın iznilə olmasına etirazın yoxdur ki?»

Caselik: «Etirazım var! Çünki ölüdirildən, anadangəlmə kor və şilə şəfa bəxş edən şəxsin özü Allah sayılmalıdır.»

İmam Rza (ə): «Yuşə peyğəmbər (ə) də İsa (ə) kimi su üzərində batmadan gəzib, ölü dirildib və anadangəlmə korlara şəfa bəxş edirdi. Bəs nəyə görə ümməti onu Allah adlandırmadı? Və heç kəs onu Allah sanaraq ibadət etmədi?

Həmçinin, Hezqil peyğəmbər (ə) də, İsa (ə) kimi möcüzələr yaradırdı. Belə ki, 60 illik 3500 ölünü məhz Hezqil peyğəmbər (ə) (Allahın iznilə) diriltdi!»

Bu zaman İmam (ə) üzünü məclisdə əyləşmiş yəhudi alimi Caluta tutaraq buyurdu: «Sən bilirsənmi «Tövrat» bu 3500 cavanın Bəni-İsrail tayfasından olduğunu söyləyir? Və orada deyilir ki, Boxtun-Nəsr onları Bəni-İsrail əsirlərindən ayıraraq Vabildə öldürdü? Sonralar isə Hezqil peyğəmbər (ə) onları Allahın göstərişilə diriltdi? Bu sözlərin hamısı Tövratda mövcuddur. Sən bunları inkar edə bilməzsən. Çünki bu sözləri ancaq kafirlər inkar edirlər.» Yəhudi alimi Calut dedi: «Biz bu sözləri eşitmişik, bilirik və qəbul edirik!»

İmam Rza (ə) Caselikə üz tutaraq buyurdu: Ey Caselik, bizim Peyğəmbər (s) anadangəlmə kor, şil və dəlilərə şəfa vermək qüdrətinə malik idi. O, heyvanlar, quşlar, cin və şeytanlarla danışmağa qadir idi. Lakin biz onu Allah sanmırıq. Vahid tanrıdan başqa heç kimi özümüzə Allah bilib ona ibadət etmirik. Biz bütün peyğəmbərlərin üstünlüyü və əzəmətinə iman gətirsək də heç bir halda onları ilahiləşdirmirik. Siz isə Yuşə (Yeşeya) peyğəmbər (ə), Hezqil (Hezegil) (ə) və Məhəmməd peyğəmbərin (s) İsa (ə) kimi möcüzəyə qadir olmalarını bilsəniz də təkcə İsanı (ə) Allah sanırsınız!...

Əgər ölü diriltmək, anadangəlmə kor və şilə şəfa vermək bir kəsin Allah olmasına dəlalət edirsə, gərək onda bütün peyğəmbərləri Allah biləsən! »

Bu zaman hər yanı sükut bürüdü. Bütün nəzərlər Caselikə tərəf yönəldi. İmam Rza (ə) buyurdu: «Caselik, nə fikirləşirsən?»

Caselik dedi: «Şəhadət verirəm ki, Allahdan başqa Allah yoxdur.»

Sonra İmam Rza (ə) yəhudi aliminə baxaraq buyurdu: «Ey Rəis Calut, səni and verirəm Musanın (ə) gətirdiyi möcüzələrə, diqqətlə qulaq as və (yalandan yox demə) inkar etmə! Tövratda Məhəmməd (s) və onun ümməti barəsində yazılanları oxumusanmı? «Axırıncı ümmət, bir dəvə minmiş şəxsə itaət edər. Onlar Allahı təzə zikrlərlə təsbih edərlər. Əvvəlki ümmətlərdən fərqli olaraq, Allaha yeni məscidlərdə, yeni təsbihlərlə ibadət edərlər. Bəni-İsrail gərək onlara itaət etsin ki, qəlbləri imanla aramlaşsın...»

-Ey Yəhudi, Tövratda qeyd olmuş bu ayələri təsdiqləyirsənmi?

Rəis Calut: «Bəli, mən bu ayələri Tövratda görmüşəm...»[150]

Gördüyünüz kimi, İmam Rza (ə) Yəhudi və Məsihi alimlərinə onların öz kitab və etiqadlarından, çox böyük hünərlə Tövhidi sübut edərək, Uca Tanrıdan başqasının ilahiləşməyini qeyri-mümkün və məntiqsiz sayır.

Qurani-kərimdə Həzrət İsa (ə) və Ruhul-Qüds çox böyüklüklə yad olunurlar. İsa (ə) Allahın ən əzəmətli peyğəmbərlərindən biri sayılır. Ruhul-Qüds isə Allahın əmrilə ona qeyb aləmindən köməklər edir. Quranda «Ruhul-Qüds», ya «Ruhul-əmin» İlahi mələyi kimi tanıdılır və bütün peyğəmbərlərə, o cümlədən, Həzrət İsaya (ə) və Həzrəti Məhəmmədə (s) İlahi vəhyi xalqa çatdırmaqda köməklik edir. Quran Allahdan başqa hər nə varsa Allahın məxluqatı və yaratdığı bilib, həzrət İsa və Ruhul-Qüdsü də bu ümumi qaydadan müstəsna etməmişdir. Həmçinin, xristianların əqidə bəslədikləri «üç üqnum əqidəsi»-ni də küfr və batil sanır.

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی

150. Üyuni-Əxbari-Rza (ə), c. 1, səh. 104 -108

## İstifadə olunmuş mənbələr

Quran
Əhdi-ətiq
Əhdi-cədid
«Protestant ilahiyyatı», Vilyam Hordern
«Fəlsəfə və Məsihi əqidəsi», K. Braun
«The New Encyclopedia Britannica», 15 th editian. (32 vols)
«İsa (ə) İslam elçisi», Doktor Əhmməd Behişti
«Dinlərin əlaqəsi», Ə. Şibli
«Mədəniyyətlər tarixi», V. Dorant
«Xristian ilahiyyatı», Henri Tesin
«Fəlsəfi terminlər ensiklopediyası», tədqiqatçı qrupu
«Məsihi ilahiyyatı», Alister E. McGrath
«Dəlalətül-hairin», İbn Məymun
«Əzəmətli xəzinə», Səlim ibn Cərcis
«Xristian dünyası». Robert Hiyom İ. Mulent
«İncillərin mahiyyəti haqda», Keoi Velf
«Dinlərin ətraflı tarixi», C. Nas
«Xristianlıq və dünya dinləri», Arnold Toinbi
«Üyuni-Əxbari-Rza (ə) », Şeyx Səduq
«Elm fəlsəfəsi və tarixi», Helzi Hal, Levis Vilyam
«Qərb fəlsəfəsi tarixi», B. Rassel

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی